RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 226 (8249) ŞƏNBƏ, 12 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# SARSIDICI ZƏRBƏ

## İlham Əliyevin “QARABAĞ AZƏRBAYCANDIR!” çağırışı milli ideyaya və hərəkata çevrilir



**Azərbaycan xalqının elə bir nümayəndəsi tapılmaz ki, Azərbaycanın ərazi bütövlüyünün bərpasını və torpaqların işğaldan azad edilməsini istəməsin, bu yolda əlindən gələni etməyə daim hazır olmasın!**

**Yaşından, cinsindən, milliyyətindən asılı olmayaraq!**

**Çünki Qarabağın işğaldan azad edilməsi təkcə Azərbaycan dövlətinin deyil, bu torpaqda yaşayan hər kəsin arzusu, amalı və həm də problemidir!**

**Artıq illərdir ki, Qarabağın geri qaytarılması məramı xalqımızı dövlətin və dövlət başçısının ətrafında sıx birləşdirən başlıca dəyərə, milli birlik və vətəndaş həmrəyliyi ideyasına çevrilmişdir!**

**Prezident İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubunda “Qarabağ Azərbaycandır!” nidasını səsləndirməsi hamının ürəyindən olmaqla bərabər, bu ideyaya yeni güc, yeni nəfəs və həyat verdi!**

*Ardı 4-cü səh.*

## Emmanuel Makron İlham Əliyevdən dəstək istədi

**Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, oktyabrın 10-da Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Fransa Prezidenti QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fonda Azərbaycan tərəfinin dəstək verməsini Azərbaycan Respublikası Prezidentindən xahiş edib.

Prezident İlham Əliyev Fransa Prezidentinin bu təşəbbüsünə öz dəstəyini ifadə edib və Azərbaycan tərəfinin bu xəstəliklərlə mübarizə işinə əhəmiyyətli töhfə verməyə hazır olduğunu bildirib.

Fransa Prezidenti dəstəyə görə minnətdarlığını bildirib və fondun bu günlərdə Lionda keçirilən konfransında Azərbaycanın dəstəyinin vurğulanacağını qeyd edib.

Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətlərin inkişafı və iki ölkənin prezidentləri arasında gələcək təmaslarla bağlı məsələləri müzakirə ediblər.



## İLHAM ƏLİYEV Ermənistanın dövlət siyasətinə çevrilən faşizmi növbəti dəfə ifşa etdi



## Azərbaycan Prezidenti Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak edib

**Oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət başçılarını salamladı.

Sonra birgə foto çəkdirildi.

MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasını açan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iclasın işinə uğurlar arzuladı.

Daha sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şuranın iclasının gündəliyi barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış etdi.



### Prezident İlham Əliyevin çıxışı

- Sağ olun, hörmətli cənab Prezident.

Hörmətli dövlət başçıları.

Səmimi qəbula və qonaqpərvərliyə görə Prezident Berdiməhəmmədova təşəkkürümü bildirmək istəyirəm.

Bizim dünənki görüşümüz Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. Mən Türkmənistana keçənilki rəsmi səfərimi də səmimiyyətlə xatırlayıram. Həmin səfər müddətində mühüm məsələlərə dair geniş fikir mübadiləsi aparıldı, bizim münasibətlərimizə yeni məzmun gətirən rekord sayda, daha dəqiq desək, 21 sənəd imzalandı. Ölkənin inkişafı, Aşqabadın abadlaşdırılması işində Türkmənistan Prezidentinin şəxsi rolunu da qeyd etmək istərdim. Burada tez-tez oluram, aşkar dəyişiklikləri, sürətli inkişafı, müasir infrastrukturu görürəm. Keçən dəfə Olimpiya şəhərciyi ilə tanış oldum.

*Ardı 2-ci səh.*

## Erməni faşizmi qlobal təhdiddir

### Ermənistan artıq tək Qafqazın deyil, dünyanın təhlükə mənbəyinə çevrilib

İctimai-siyasi və iqtisadi institutları ağır böhran keçirən, yürütdüyü işğalçılıq siyasəti və aqressivlik səbəbindən regionda həyata keçirilən beynəlxalq transmilli layihələrdən kənarda qalan Ermənistanda sosial-iqtisadi gərginlik davam etməkdədir.

Ölkədə hakimiyyətdaxili gərginlik artır, iqtidara yaxın təbəqədə təmsil olunanlar arasında qarşıdurmalar güclənir. Baş nazir N.Paşinyanın siyasi maraqlarına xidmət edənlərin qanun pozuntuları artıq siyasi dairələrdə ciddi narahatlıq yaradır. Ölkə siyasətçiləri həyəcan təbili çalırlar.

*Ardı 4-cü səh.*



# İLHAM ƏLİYEV Ermənistanın dövlət siyasətinə çevrilən faşizmi növbəti dəfə ifşa etdi

## Azərbaycan Prezidenti Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak edib

*Əvvəli 1-ci səh.*

Bütün bunlar göz oxşayır, vətəndaşların idmanla məşğul olmaları və ölkənin inkişafı işinə fəal töhfə vermələri üçün yaxşı imkan yaradır. Genişmiqyaslı tikinti işləri də heyranlıq doğurur. Mən bilirəm ki, Prezident hər bir layihəyə şəxsən nəzarət edir, buna görə də şəhər inkişaf edir, nadir vahid şəhərsalma ansamblı yaradılıb.

Bugünkü Zirvə Görüşünün gündəliyindəki məsələlərdən biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciətidir. Ən dağıdıcı, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımız gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər. Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış bir oyuq, həmin oyuqda "Bakı" adlı qara rəngli maye şokolad var. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb "Bakı" sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni, bu halda qurbanların sayı bəlkə yüz minlərlə olardı.

Azərbaycan elminin nümayəndələri ümumi qələbəmizə sanballı töhfə veriblər. Məsələn, böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan "Molotov kokteyli" kimi məşhurlaşmış yandırıcı maye ixtira etmişdi. Bu barədə çox adam bilmir, lakin bu, həqiqətdir. Bakının zavodlarında gecə-gündüz istehsal edilən məşhur "Katyuşa" raketləri və digər silahlar düşməni dəhşətə salmışdı. Müharibədə həlak olanların xatirəsini Azərbaycanda ehtiramla yad edir, müharibə veteranlarına böyük qayğı göstərirlər. Oyuncaq, satqın, xalqa zidd, biabırçı Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu 1992-1993-cü illərdə 9 May bayramı ləğv edilmişdi, müharibə veteranları isə alçaldılmağa və təhqirlərə məruz qalırdılar. Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun ilk qərarlarından biri 9 May - Qələbə Gününün bərpa edilməsi oldu. O vaxtdan təqvimdə qırmızı rənglə qeyd olunan bu gün qeyri-iş günüdür və milli bayram kimi qeyd edilir.

Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Həmin məruzədə deyilir: "Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir.




Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Burada şərhə ehtiyac yoxdur. Njde həbs olundu və Vladimir həbsxanasında ömrünü başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur.

Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidentinin çıxışında səslənən əsaslı arqumentlərə cavab verməyə uğursuz cəhd etdi. O dedi:

- İlham Heydər oğlunun nitqindən belə təəssürat yaranır ki, ümumiyyətlə, bu müharibədə Hitler yalnız ikinci dərəcəli rol oynayıb və nasist hərəkatının lideri Qaregin Njde olub. Həqiqət isə budur ki, Qaregin Njde Ermənistanın türk işğalına və türklərin təşkil etdikləri ermənilərin soyqırımına qarşı mübarizə aparıb. Həqiqət ondan ibarətdir ki, Qaregin Njde, yeri gəlmişkən, 1918-ci ildə erməni-türk müharibəsi zamanı bir çox rusiyalı zabitlərlə birgə cəbhənin mühüm hissəsinə rəhbərlik edib. Mən bir daha qeyd etmək istəyirəm ki, bizim tarix barədə obyektiv qiyməti bilməyimiz çox vacibdir. Deyilir ki, Qaregin Njde Vladimir həbsxanasında ölüb. Bir çox sovet xadimləri Vladimir həbsxanasında ölüblər. Soljenitsin QULAQ-da olub. 1937-1950-ci illərə qədər məhkum edilənlərin hamısının xalq düşmənləri olduğunu hesab edirik? Əgər belədirsə, onda bir çox görkəmli xadimlər məhkum olub öz həyatlarını həbsxanalarda bitiriblər. Bu, o demək deyil ki, biz bütün bunları fakt kimi qəbul etməliyik. Mən bu formatdan tarixi təhrif etmək, bu kifayət qədər vacib iclasın abhavasına hansısa gərginlik gətirilməsi üçün istifadə olunmasını yersiz hesab edirəm. Hesab edirəm ki, Azərbaycan Prezidentinin sözləri, ilk növbədə, erməni xalqına hörmətsizlikdir. Mən bunu dövlət başçılarına və onların təmsil etdiyi xalqlara qarşı hörmətsizlik hesab edirəm. Hörmətli həmkarlar, mən belə gərginliyə görə üzr istəyirəm. Amma siz gördünüz ki, onun müəllifi mən deyiləm.

Ermənistanın baş naziri Nikol Paşinyanın çıxışından sonra növbəti çıxış edən Belarus Prezidenti Aleksandr Lukaşenko olmalı idi. Dövlətimizin başçısı Belarus Prezidentindən icazə alaraq Nikol Paşinyanın çıxışında səslənən sözlərə tutarlı faktlarla cavab verdi. Prezident İlham Əliyev dedi:

- Mən, sadəcə, şərh verməyə məcburam. Belə ki, Ermənistanın baş nazirinin çıxışında söhbət məndən gedib. Halbuki mənim çıxışımda söhbət Ermənistanın baş nazirindən, xüsusən də erməni xalqından getməyib. Hesab edirəm ki, Sovet İttifaqının digər xalqları kimi, bizim ümumi qələbəmizə böyük töhfə verən erməni xalqı, ilk növbədə, özü əvvəlki rəhbərliyin ölkəyə vurduğu bu ləkədən təmizlənməlidir. Əgər baş nazir mənim çıxışıma diqqətlə qulaq asıbsa, onda yəqin ki, o da bunu tutub. Həmçinin hesab edirəm ki, nasist əlaltıları və cinayətkarları ilə QULAQ-ın və digər düşərgələrin repressiyaya məruz qalmış dustaqlarını müqayisə etmək qətiyyən yolverilməzdir. Mən öz çıxışımı təsadüfən sitatlarla möhkəmləndirmədim. Onları kitabxanada, internetdə tapmaq olar. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin 2019-cu ilin may sitatında və Rusiyanın Müdafiə naziri Şoyqunun redaksiyası altında 12 cildlik nəşrin sitatında kifayət qədər aydın deyilir ki, o, necə bir "xadim" olub. Həmçinin nə qədər iyrənc olsa da, onun sitatını mən bir daha təkrar edəcəyəm: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Bu, Böyük Vətən müharibəsi illərində deyilib. Buna görə də hesab edirəm ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət, ilk növbədə, bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir. Mənim dövlət başçılarına hörmətsizlik göstərdiyimə gəlincə, düşünürəm ki, bizim iclasımız, yəqin ki, bundan daha absurd tezis eşitməyib. Sağ olun.

❖ ❖ ❖

Sonra digər dövlət başçıları çıxış etdilər.

# Aşqabadda MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib

**Oktyabrın 11-də Aşqabadda məhdud tərkibdə iclas başa çatandan sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedevə Türkmənistanın "Bitərəflik" ordenini təqdim etdi.

Azərbaycanın Rusiyadakı səfiri, MDB-yə üzv ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun idarə heyətinin sədri Polad Bülbüloğlu fondun "Humanitar əməkdaşlığın inkişafında xidmətlərinə görə" medalını Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim etdi.

İclasda bir sıra sənədlər, o cümlədən "Strateji iqtisadi əməkdaşlıq haqqında" bəyannamə imzalandı.

❖ ❖ ❖

Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından nümayəndə heyətləri başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu.

Azərbaycan Prezidenti İlham Əliyev qəbulda iştirak etdi.

❖ ❖ ❖

Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfəri başa çatdı.









## İspaniyanın Kralı Əlahəzrət VI Felipeyə

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İspaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 oktyabr 2019-cu il*

## Əli HƏSƏNOV: "Türkiyənin həyata keçirdiyi əməliyyat mövcud problemin ən rasional həlli variantıdır"

Azərbaycan və Türkiyə iki dost, qardaş və strateji tərəfdaş ölkə kimi həmişə bir-birinə dəstək olub, mühüm beynəlxalq və regional əhəmiyyət kəsb edən məsələlərə ortaq mövqedən yanaşıblar.



Biz həmişə bir-birimizin uğuruna sevindiyimiz kimi, çətin anlarda da bir yerdə olmuşuq, bacardığımız köməyi əsirgəməmişik. Azərbaycan həmişə Türkiyənin öz milli-strateji maraqları çərçivəsində həyata keçirdiyi siyasəti dəstəkləyib, habelə dost və qardaş ölkənin beynəlxalq terrorizmlə mübarizə sahəsində göstərdiyi səyləri yüksək qiymətləndirib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb.

Statusda deyilir: "Hazırda Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi "Sülhün mənbəyi" əməliyyatı ciddi silahlı qarşıdurma müşahidə olunan Suriya ilə həmsərhəd ərazilərdə terror riskinin minimuma endirilməsi, bu ölkədən milyonlarla qaçqının təhlükəsizliyinin təmin edilməsi, onların üzləşdiyi humanitar problemlərin aradan qaldırılması və sabitliyin təmin olunması üçün digər məsələlərin həlli məqsədini daşıyır.

Məlumdur ki, Suriyada münaqişə başlayan dövrdən bu ölkə ilə həmsərhəd olan Türkiyə ciddi qaçqın axını ilə üzləşib. Artıq qardaş ölkədə məskunlaşmış suriyalıların sayı milyonlarla ölçülür. Təəssüf ki, rəsmi Ankara tərəfindən dəfələrlə, təkidlə qaldırılmasına baxmayaraq, beynəlxalq birlik bu problemin həllinə dəstək göstərməyib. Hesab edirik ki, belə olan təqdirdə Suriya ərazisində təhlükəsiz zonanın yaradılması və qaçqınların həmin ərazilərdə, öz doğma torpaqlarında məskunlaşdırılması məqsədilə həyata keçirilən əməliyyat mövcud problemin ən rasional həlli variantıdır.

Digər tərəfdən, Türkiyənin öz sərhədləri yaxınlığına, terror qruplarının nəzarəti altında olan Suriya ərazilərində keçirdiyi hərbi əməliyyat BMT Nizamnaməsinə, BMT-nin "Beynəlxalq terrorizmin ləğv edilməsi tədbirləri haqqında" Bəyannaməsinə, "Terrorizmin qarşısının alınması haqqında" Avropa Konvensiyasına və digər beynəlxalq qanunvericilik aktlarına söykənir. Qeyd olunan sənədlər terror təhlükəsinə məruz qalan bu və ya digər dövlətin təkcə öz ərazisində deyil, terror təhlükəsinin mənbəyi olan başqa dövlətlərin ərazilərində də beynəlxalq birliyi xəbərdar etməklə antiterror əməliyyatlarının keçirilməsinə əsas verir.

Azərbaycan uzun illərdir ki, aqressiv separatizmdən və terrorizmdən əziyyət çəkən bir ölkə kimi Türkiyənin qarşılaşdığı problemləri kifayət qədər yaxşı başa düşür. Bu gün işğal altında olan Azərbaycan əraziləri beynəlxalq terror qruplarının təlim bazası funksiyasını yerinə yetirir. Rəsmi Bakı bununla bağlı dəfələrlə beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırıb. Türkiyənin Suriya ərazisində həyata keçirdiyi antiterror əməliyyatları bir daha sübuta yetirir ki, terrorizmə qarşı ikili standartlar yolverilməzdir və son nəticədə onun daha qlobal miqyasda çiçəklənməsinə zəmin yaradır. Şübhə etmirik ki, Azərbaycan da işğalçı hərbi birləşmələrin, terror qruplarının nəzarəti altında olan ərazilərində antiterror əməliyyatı aparacaq və Türkiyə də beynəlxalq terrorizmə qarşı mübarizənin ön sıralarında yer alan bir dövlət kimi bu prosesə öz töhfəsini verəcək. Bu yolda həm qardaş Türkiyəyə, həm də Azərbaycanımıza uğurlar diləyirik".

## Azərbaycan terrorizmin bütün forma və təzahürlərini qəti şəkildə pisləyir

Azərbaycan terrorizmin bütün forma və təzahürlərini qəti şəkildə pisləyir və beynəlxalq ictimaiyyətin terrorizmə qarşı mübarizədə səylərini dəstəkləyir. AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatında öz əksini tapıb.

Bəyanatda deyilir: "Bu mənada biz əminik ki, Türkiyə hökuməti tərəfindən bəyan edildiyi kimi, Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi "Sülhün mənbəyi" əməliyyatı Suriyanın ərazi bütövlüyü çərçivəsində terror riskinin aradan qaldırılmasına, qaçqınların öz evlərinə qayıtmasına, humanitar problemlərin həll edilməsinə, sülh və sabitliyin təmin edilməsinə xidmət edəcək".

# Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirilib





Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na əsasən Mərkəzi Seçki Komissiyası (MSK) cari ildə ilk maarifləndirmə layihəsinə start verib.

Aşağı seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılmasına, onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənməklə bütün respublikanı əhatə edən irimiqyaslı layihənin birinci mərhələsi çərçivəsində oktyabrın 11-də MSK-da ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədə açılış nitqi ilə çıxış edən MSK-nın sədri Məzahir Pənahov müstəqil Azərbaycanda müxtəlif sahələrdə olduğu kimi, seçkilər sferasında da ciddi irəliləyişlər əldə edildiyini diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycanın seçki təcrübəsini nümunə göstərmək olar. 1990-ci illərin ortalarından sonra ölkədə siyasi sabitlik əldə edildi. Bu isə ədalətli, şəffaf seçki keçirilməsi üçün əsas şərtdir.

Sədr bildirib ki, müxtəlif dövrlərdə seçki prosesinə müdaxilələrlə bağlı müəyyən cəhdlər olsa da, dövlətimizin başçısının ortaya qoyduğu mövqe ilə bu cəhdlərin qarşısı alınıb və şəffaf seçkilərin keçirilməsinə nail olunub. MSK müxtəlif dövlət qurumları ilə sıx əlaqə saxlayır və bu, şəffaf seçkilərin keçirilməsinə zəmin yaradır. Bütün bölgələrdə məntəqə seçki komissiyaları üçün əlverişli iş şəraiti yaradılıb. Azərbaycanda bu il dekabrın 27-də keçiriləcək bələdiyyə seçkilərində səsvermə prosesini izləmək üçün beynəlxalq təşkilatların nümayəndələri də dəvət ediləcək. Bələdiyyə seçkilərində beynəlxalq müşahidəçilərin sayı az olur. Bu seçkilərə Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin nümayəndələri dəvət olunacaq.

"Hesab edirəm ki, müşahidəçilər baxımından problem olmayacaq. Biz çalışacağıq ki, seçkilərdə maksimum dərəcədə beynəlxalq müşahidəçilər olsun. Çünki biz seçkilərdə beynəlxalq müşahidəçilərin iştirak etməsində maraqlıyıq. Mərkəzi Seçki Komissiyası seçkilərə hazırlıq işlərini yekunlaşdırır. Yaxın günlərdə seçkiləri rəsmi şəkildə elan edəcəyik", - deyə Məzahir Pənahov vurğulayıb.

Müşavirədə Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri Zeynal Nağdəliyev çıxış edərək deyib ki, bu gün Azərbaycanda seçkilərə rəhbərlik edən şəxslərin peşəkarlığı yüksək səviyyədədir. Bu, seçkiləri izləyən xarici müşahidəçilərin də hesabatlarında öz əksini tapır.

Zeynal Nağdəliyev qeyd edib ki, Prezident İlham Əliyevin davamlı səyləri nəticəsində son dövrdə keçirilən seçkilər əvvəlkilərdən müqayisəolunmaz dərəcədə fərqlənir. Ölkəmizdəki siyasi sabitlik seçkilərin şəffaf keçirilməsi üçün münbit şərait yaradır. Azərbaycanda dörd bələdiyyə seçkiləri keçirilib. Qarşıda isə bizi beşinci seçkilər gözləyir.

Prezidentin köməkçisi deyib: "Vətəndaşların yerli idarəetmə orqanlarına marağı gündən-günə artır. Seçkilərə ali təhsilli namizədlərin sayı çoxalır. Əminik ki, növbəti bələdiyyə seçkiləri də şəffaf, qanunauyğun şəkildə keçiriləcək. Çatışmazlıqlar vaxtında aradan qaldırılacaq. Ölkəmizdə təşviqat işinin düzgün aparılması üçün bütün şərait yaradılıb. Azərbaycanda seçki sistemi təkmilləşdirilib, insanların seçkiyə marağı artıb. Seçkiləri izləyən müşahidəçilərin iradları azalmaqdadır. Bu, onu göstərir ki, seçki sistemi sürətlə təkmilləşdirilir. Bunun da səbəbi ölkədəki siyasi sabitlikdir, Prezident İlham Əliyevin nüfuzudur. Azərbaycandakı seçki sistemi dünya üçün nümunədir. İnsanlar yaranmış bu şəraiti dəyərləndirir, seçkidə fəallıq göstərirlər".

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə qeyd edib ki, bələdiyyələrin hüquqi bazası, demək olar, tamamlanıb. Bələdiyyələrin fəaliyyətində qarşıya çıxan problemlər aradan qaldırılır. Qısa müddət ərzində bələdiyyələr böyük yol keçiblər. Hər bir vətəndaş bələdiyyələrin fəaliyyətində iştirak etməlidir. Lakin bələdiyyə ödənişlərinin yığılması ilə bağlı məsələ heç də ürəkaçan deyil. Azərbaycan dövləti tərəfindən bu problemi aradan qaldırmaq üçün əməli addımlar atılır.

Baş prokurorun birinci müavini Rüstəm Usubov çıxış edərək bildirib ki, bələdiyyə seçkiləri respublikamız üçün çox əhəmiyyətli hadisədir. Hər birimiz bu prosesdə iştirak etməliyik. Şəffaf seçkilər ölkəmizdə demokratiyanın göstəricisidir.

Rüstəm Usubov qeyd edib ki, son dövrlərdə bələdiyyələrin statusunda ciddi dəyişikliklər edilib və onlara əlavə statuslar verilib. Bu isə bələdiyyələrin işinə müsbət təsir göstərir. Prokurorluq orqanları seçki prosesinə xüsusi həssaslıqla yanaşır. Azərbaycan prokurorluğu bu məsələdə Mərkəzi Seçki Komissiyası ilə sıx əlaqədə çalışır. Daxil olan şikayətlərə ciddi şəkildə baxılır, məsələ ətraflı araşdırılır. "Həmişə olduğu kimi, seçki qanunvericiliyini qorumalıyıq. İnanıram ki, bu seçkini də birlikdə yüksək səviyyədə keçirəcəyik. Cəmiyyətin tərəqqi və inkişaf yolu demokratik seçkilərdən keçir. Seçkilər mühüm siyasi tədbir olaraq ölkədə demokratiyanın başlıca göstəricisi və xalqın iradəsinin qanuni formasının ifadəsidir. Seçki prosesinə müdaxilə edən şəxslər Cinayət və İnzibati Xətalar məcəllələrinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər", - deyə Baş prokurorun birinci müavini bildirib.

Daxili İşlər nazirinin müavini Oruc Zalov Azərbaycan daxili işlər orqanlarının qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi hazırlaşdığını deyib. Qeyd edib ki, seçkilərin sabit şəraitdə keçirilməsi üçün daxili işlər orqanları böyük məsuliyyət daşıyır. Bu seçkilərdə də daxili işlər orqanları şəxsi heyətin sayıqlığının artırılması, qarşıya çıxan problemlərin aradan qaldırılması üçün yerli icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlıq şəraitində çalışacaqlar. Təşviqat qruplarının təhlükəsizliyinin təmin olunması da daxili işlər orqanlarının diqqət mərkəzində olacaq. Bu gün müasir texnologiyalar dövründə demokratik və aşkar keçirilən seçkilərə xələl gətirmək istəyənlər də yox deyil. Asayişin pozulmasına yönələn hər hansı cəhdin qarşısı qətiyyətlə alınacaq.

Nazir müavini bildirib ki, seçkilərin sabitlik və əmin-amanlıq şəraitində keçirilməsi üçün daxili işlər orqanlarının üzərinə düşən vəzifələri tam həcmdə və layiqincə yerinə yetirməsi xüsusi əhəmiyyət kəsb edir. Mühüm dövlət tədbirlərinin qanunvericiliyin tələblərinə uyğun, təhlükəsiz şəraitdə keçirilməsi, vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsi üçün əsas amillərdən olan ictimai asayişin etibarlı qorunmasını təşkil etmək məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən bütün zəruri tədbirlər nəzərə alınıb və tədbirlər planının hazırlanmasına başlanılıb.

Ədliyyə nazirinin müavini Azər Cəfərov qeyd edib ki, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin fəaliyyətini təmin etmək üçün əməli addımlar atılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bir çox dövlət proqramlarında bələdiyyələrin potensialının gücləndirilməsi ilə bağlı mühüm tədbirlər müəyyənləşdirilib. Ədliyyə Nazirliyi bələdiyyələrin fəaliyyətində qanunçuluğa əməl olunması üçün mütəmadi iş aparır. 156 bələdiyyə üzvü ilə bağlı iş baxılması üçün prokurorluq orqanlarına göndərilib. Seçkilərin daha ədalətli və şəffaf keçirilməsi üçün hər bir Azərbaycan vətəndaşı səy göstərməlidir. Seçkilər zamanı ədliyyə orqanlarının üzərinə düşən ən mühüm vəzifələrdən biri penitensiar müəssisələrdəki vətəndaşların seçki hüququndan istifadəsinin təmin edilməsi ilə bağlıdır. Bir çox ölkələrdə məhkum olunan şəxslərin seçki hüququ yoxdur. Bəzi ölkələrdə bu hüquq müəyyən şərtlərlə verilir. Azərbaycanda isə seçki hüququna malik bütün məhkum olunmuş vətəndaşlar sərbəst şəkildə öz namizədlərinə səs verirlər.

Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyev və Ali Məhkəmənin hakimi Xəqani Məmmədov seçki prosesi, bu sahədə qarşıya çıxan problemlər və məsələnin operativ, ədalətli şəkildə araşdırılması barədə ətraflı məlumat veriblər.

MSK Katibliyinin müdiri Rövzət Qasımov, Katibliyin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov və Ümumi şöbənin müdiri Elşən Əsgərov qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı müxtəlif mövzularda təqdimatlarla çıxışlar edib və iştirakçıları maraqlandıran sualları ətrafı cavablandırıblar.

Qeyd edək ki, aşağı seçki komissiyalarının üzvlərinin bələdiyyə seçkiləri ilə əlaqədar müxtəlif istiqamətlərdə maarifləndirilməsi məqsədi daşıyan genişmiqyaslı layihənin ikinci mərhələsi oktyabrın 15-17-də ölkə ərazisindəki bütün dairə seçki komissiyalarının katiblərini, üzvlərini və məntəqə seçki komissiyalarının sədrlərini əhatə etməklə seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar şəklində keçiriləcək. Bu mərhələdə regionlarda MSK təmsilçiləri, dairə seçki komissiyalarının sədrləri, rayonların yerli icra hakimiyyəti, məhkəmə, prokurorluq və polis orqanlarının rəhbər şəxsləri aşağı seçki komissiyalarının üzvləri qarşısında çıxış edəcək və seçkilərlə bağlı müxtəlif mövzular ətrafında müzakirələr aparılacaq. Ümumilikdə 6000-dən çox seçki rəsmisini əhatə edən bu irimiqyaslı layihə aşağı seçki komissiyaları üzvlərinin seçki prosesi ilə bağlı hərtərəfli informasiya əldə etmələrinə imkan yaradacaq.

# Azərbaycandakı dini konfessiya rəhbərlərinin birgə bəyanatı

**İşğalçı Ermənistanın Azərbaycanın Şuşa şəhərindəki Gövhərağa məscidinə qarşı həyata keçirdiyi vandalizm siyasətini ört-basdır etmək cəhdi ilə bağlı Azərbaycandakı dini konfessiya rəhbərləri 2019-cu il oktyabrın 11-də birgə bəyanat qəbul ediblər. AZƏRTAC bəyanatı təqdim edir.**

* * *

Bir Olan Yaradanımızın Adı ilə!

İşğalçı Ermənistan növbəti dəfə təcavüzkar əməllərini davam etdirərək mənəvi müstəvidə, dini abidələrimizə qarşı beynəlxalq hüquq normaları - sivil dünyanın mənəvi irsin qorunması ilə bağlı qəbul etdiyi konvensiya və digər sənədlərin tələblərini kobud surətdə pozur. Azərbaycanın işğal olunmuş Şuşa şəhərinin Cümə məscidinə - 1883-cü ildə görkəmli Azərbaycan memarı Kərbəlayi Səfixan Qarabaği tərəfindən Qarabağ xanı İbrahim Xəlil xanın qızı Gövhərağanın şərəfinə ucaldılmış dini memarlıq abidəsinə qarşı Ermənistan tərəfindən məqsədyönlü terror həyata keçirilir.

İşğal olunmuş Azərbaycan torpaqlarında xalqımıza məxsus mədəni, tarixi və dini irsi məhv edən Ermənistan özlərinin dağıtdığı Şuşadakı Gövhərağa məscidinin "təmir-bərpa"sından sonra təxribat xarakterli "açılışına" hazırlaşır. Məscidin "təmir"dən sonra "açılış"ı ilə Ermənistan beynəlxalq ictimaiyyəti aldatmağa, özünü tarixi abidələrə "qayğı" ilə yanaşan bir ölkə imicində təqdim etməyə çalışır. Bu, işğalçı Ermənistanın və onun cinayətkar rejiminin işğal olunmuş ərazilərimizdə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin daha bir bariz nümunəsidir. Təəssüf doğuran və bizi narahat edən hal həm də ondan ibarətdir ki, yayılan məlumatlara görə, işğalçı rejim bu işləri qonşu, müsəlman ölkəsi olan İranın "Part Saman Jahan" şirkəti ilə birgə həyata keçirir.

Zəbt olunmuş Azərbaycan torpaqlarında məscidləri, qəbiristanlıqları, digər məbədləri davamlı şəkildə məhv edən təcavüzkar ermənilər indi saxta humanizm pərdəsi altında, bərpa adı ilə məscidin tarixi görkəmini dəyişdirərək onun etnik mənsubiyyətini saxtalaşdırır, işğal olunmuş ərazilərdə azərbaycanlılara məxsus mədəni irsin silinməsi ilə məşğul olurlar. Məscidin "təmir-bərpa" işlərindən sonra saxta dəyişikliklərə məruz qalacağı, qədim Alban kilsələrində və digər məbədlərdə olduğu kimi, tarixi təhrif edən düzəlişlərlə təqdim olunacağı şübhəsizdir.

Biz - Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri Şuşadakı dini-mədəni abidəyə bu dırnaqarası qayğı kampaniyasını qətiyyətlə pisləyir, ermənilərin işğal altında saxladıqları ərazilərimizdə dini-mədəni abidələrimizə qarşı tarixin saxtalaşdırılması yolu ilə həyata keçirilən əməllərini beynəlxalq konvensiyalara meydan oxuyan yolverilməz qəsbkarlıq siyasəti kimi dəyərləndirir, buna heç bir bəraət olmadığını bəyan edirik. Bu təxribatı ilə erməni tərəfi, hər zamankı kimi, bu dəfə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində danışıqlar prosesindən yayındığını və dini liderlər formatında imzaladığımız birgə bəyanatların ruhuna zidd riyakar əməllərindən əl çəkmədiyini nümayiş etdirir.

Biz beynəlxalq ictimaiyyəti əzəli Azərbaycan torpağında tarixi-dini abidə olan Gövhərağa məscidinə və işğal altındakı bütün ərazilərimizdəki tarixi-dini abidələrə qarşı vandalizm aktlarına öz qətiyyətli münasibətini bildirməyə, "Silahlı münaqişə hallarında mədəni irsin mühafizəsinə dair" Haaqa Konvensiyasının (1954), UNESKO-nun Ümumdünya Mədəniyyət və Təbiət İrsinin Qorunmasına dair Konvensiyasının (1972), Arxeoloji İrsin Qorunmasına dair Avropa Konvensiyasının (1992) müddəalarına istinadən bu kimi halları kəskin qınamağa, bir daha təkrarlanmaması ilə bağlı ciddi addımlar atmağa çağırırıq.

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***ALEKSANDR,***
***Bakı və Azərbaycan Arxiyepiskopu***

***Melih YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Azərbaycandakı Alban-udi Xristian İcmasının sədri***

# Milli Məclis komitələrinin birgə iclasında bir sıra qanun layihələri müzakirə olunub

Oktyabrın 11-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı iclası açaraq gündəlikdəki qanun layihələri barədə məlumat verib. Komitə sədri qeyd edib ki, Ailə Məcəlləsində, Mülki-Prosessual və Mülki məcəllələrdə, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlər Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında parlamentə daxil olub.

Bildirilib ki, Ailə Məcəlləsinə təklif olunan dəyişikliklər Azərbaycan Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli fərmanına uyğunlaşdırmaq məqsədi daşıyır. Dəyişikliklər övladlığagötürmə sahəsində idarəetmə mexanizmlərini, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, habelə onları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun təkmilləşdirilməsini, bu prosesdə şəffaflığın təmin edilməsini, övladlığa götürülmüş uşaqların yeni ailələrdə yaşaması və inkişafı prosesinə nəzarətin gücləndirilməsi məsələlərini əhatə edir. Mövcud qanunvericiliyə əsasən valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların üçpilləli uçotu aparılırdı. Yeni yanaşma isə təkmil uçotun aparılmasına, uçotu aparılan şəxslər haqqında məlumatların real vaxt rejimində yenilənməsinə, övladlığa uşaq götürmək istəyən şəxslərin həyat şəraitinin, uşaqla ailənin uyğunlaşmasının müəyyən edilməsinə tam imkan verəcək.

Sənədlərdə aparılan dəyişikliklərin əhəmiyyətini vurğulayan Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təklif olunan əlavə və dəyişikliklərin övladlığa götürmə sahəsində şəffaflığın təmin olunması, məsuliyyətliliyin artırılması və idarəetmənin təkmilləşdirilməsinə xidmət edəcəyini söyləyib. Deputatlar Tahir Kərimli, Sədaqət Vəliyeva, Sahibə Qafarova, Çingiz Qənizadə, Elşən Musayev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov, Təhsil Nazirliyinin idarə rəisi Məlahət Hacıyeva, Səhiyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Ailə, qadın və uşaq məsələləri üzrə Dövlət Komitəsinin nümayəndələri sənədlə bağlı fikirlərini bildirib, qanun layihəsinin övladlığa uşaq götürmə sahəsində mövcud olan boşluqların aradan qaldırılması üçün təkmil bir şəkildə işləndiyini qeyd ediblər.

Müzakirə olunan qanun layihələrinin baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

# İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Heydər Əliyev Mərkəzi ilə tanış olub





İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniye oktyabrın 11-də Heydər Əliyev Mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, qonağa Heydər Əliyev Mərkəzinin fəaliyyəti və mərkəzin memarlıq incisi olan binası haqqında məlumat verilib. Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədrinin marağına səbəb olub. Qonağın diqqətinə çatdırılıb ki, muzeyin "Fotoşəkillərdə əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs, nailiyyətlər" adlı bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyətinə dair məlumatlar virtual şəkildə təqdim olunur. Jan-Rene Furniye mərkəzdə "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyedə xoş təəssürat yaradıb.

# Hesablama Palatasının sədri beynəlxalq paralel səmərəlilik auditinin ilkin nəticələrinə dair Kiyevdə keçirilən tədbirdə iştirak edib



Oktyabrın 10-da Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) dəstəyi ilə Ukraynanın paytaxtı Kiyevdə BMT-nin 2030-cu il Gündəliyinin Nailiyyətlərinə Nəzarət üçün Şərq Tərəfdaşlığı ölkələrində Ali Audit Qurumlarının (AAQ) Potensialının Gücləndirilməsi layihəsi nəzdində paralel səmərəlilik auditlərinin aparılması və bu istiqamətdə ikitərəfli əməkdaşlıq əlaqələrinin gücləndirilməsi üzrə toplantı keçirilib. Toplantıda Azərbaycanı Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Palatadan AZƏRTAC-a bildirilib ki, layihənin açılış mərasimində Ukrayna Hesablama Palatasının sədri Valeri Patskan, Azərbaycan Respublikası Hesablama Palatasının sədri V.Gülməmmədov, Gürcüstanın Baş auditoru Erekle Mekvabişvili, Belarusun Dövlət Nəzarət Komitəsi sədrinin müavini Aleksandr Kurlypo, GIZ-in layihə menecerləri İnqa Sinijkaşvili və Tomas Meyer çıxış ediblər.

Tədbirdə əsas mövzulardan biri olaraq vərəmin qarşısının alınması və müalicəsinə dair paralel auditin keçirilməsi müəyyən olunub, bu mövzu üzrə GIZ-in eksperti İrakli Tsitsilaşvili "Beynəlxalq paralel səmərəlilik auditinin keçirilməsi ilə bağlı əməkdaşlıq barədə" ümumi mövqe sənədinə dair təqdimatla çıxış edib. Daha sonra Azərbaycan Respublikası Hesablama Palatasının sektor müdiri Ceyhun Şıxəliyev vərəmlə mübarizə və müalicəsinin beynəlxalq paralel səmərəlilik auditinin keçirilməsi üzrə Azərbaycan tərəfinin ilk nəticələrini təqdim edib və intensiv diskussiyalarda verilmiş sualları cavablandırıb.

Tədbirdə bir daha mövzunun əhəmiyyəti və aktuallığı qeyd olunaraq vərəmin qarşısının alınması və müalicəsinə dair paralel auditin nəticələrinin iştirakçı ölkələrin AAQ-larının iştirakı ilə Şərq Tərəfdaşlığı ölkələrində səhiyyə sistemində aparılacaq islahatlarda, həmçinin 3-cü Dayanıqlı İnkişaf Məqsədinin (Sağlamlıq və Rifah) INTOSAI-ın 2017-2022-ci illər üzrə Strateji Planına uyğun icrasının monitorinqi və təsdiqində istifadə ediləcəyi vurğulanıb.

Tədbirin növbəti mərhələsi kimi nümayəndə heyətlərinin rəhbərlərinin Ukraynanın Ali Radasının spikeri Dmitri Razumkov ilə görüşü keçirilib. Görüş zamanı Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrinin Ali Audit Qurumları timsalında kənar dövlət maliyyə nəzarəti funksiyası üzrə məsul qurumların rolu və əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

# Naxçıvandakı hərbi hissədə məşğələ



Ölkəmizə ağır texnika və yük avtomobillərinin idxalını həyata keçirən "Grand Motors" MMC-nin təlim keçmiş yüksəkixtisaslı heyəti tərəfindən Naxçıvandakı hərbi hissədə məşğələ keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ordudakı müxtəlif markalı buldozerlərin heyətləri ilə keçirilən məşğələdə əsas diqqət texnikanın istismarı qaydalarına və texniki qulluğun göstərilməsinə yönəldilib.

Məşğələ zamanı buldozer texnikalarında mühərrik yağlarından istifadə, texniki müayinə və akkumulyator batareyalarına qulluq qaydaları praktiki olaraq göstərilib.

Məşğələnin sonunda buldozerlərin heyətlərindən məqbullar götürülüb.




*Əvvəli 1-ci səh.*

Ermənistanın küçədən vəzifəyə gəlmiş baş naziri N.Paşinyanın sərsəm açıqlamasına Azərbaycan tərəfinin layiqli cavab verəcəyi kimsədə şübhə doğurmurdu!

**Çünki hamı cənab İlham Əliyevin qətiyyətini və xarakterini, düşmənin hər bir hərəkət və addımına tutarlı, kəskin cavab vermək bacarığını, həm də sözü ustalıqla dediyini və özünəməxsus qrossmeyster gedişini məqamında etdiyini gözəl bilir.**

Bu, belə də oldu!

*ƏVVƏLA,* cavab üçün çox uğurlu məkan seçilmişdi:

- *Dünyanın hər tərəfindən gələn say-seçmə insanların, dövlət rəhbərlərinin, siyasi xadimlərin iştirak etdiyi “Valday” Beynəlxalq Diskussiya Klubunun panel iclası;*
- *Yenicə Ermənistana səfərdən qayıtmış Rusiya Prezidenti Vladimir Putinin iştirak etdiyi məclis;*
- *Dünya KİV nümayəndələrinin və beynəlxalq ekspertlərin təmsil olunduğu tədbir;*
- *İclasdakı çıxışların birbaşa bütün dünyaya yayımlandığı məqam;*
- *Üstəlik, ağılla qurulmuş, təmkinli və soyuqqanlı, fakt və arqumentlərlə söylənən nitq!*

Nitqin ən böyük uğurlarından biri onun zəngin faktları əhatə etməsinə rəğmən sərrastlığı və yığcamlığı idi!

*İKİNCİSİ,* hədəflər dəqiq və aydın seçilmişdi!

*ÜÇÜNCÜSÜ,* deyilənlər dəqiq və təkzibedilməz olmaqla bərabər, real faktlara və tarixi sənədlərə söykənirdi!

**Cənab İlham Əliyev ilk növbədə N.Paşinyanın simasında təzahürünü tapan erməni yalanını ifşa etdi: “1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir”.**

İkincisi, Prezidentimiz son dərəcə ağıllı və məntiqli bir yanaşma nümayiş etdirdi: Ermənistanın özünün də tanımadığı bu qanunsuz qurum Ermənistanın bir hissəsi necə ola bilər?!

*Sonra yaxın keçmişdə qəbul edilən sənədlərə əsaslanan faktlar bir-birinin ardınca açıqlanaraq xatırladıldı!*

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bəyan etdikdən sonra Dağlıq Qarabağla birlikdə BMT-yə üzv olmuşdur!

Daha bir vacib məqam: BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib!

İlham Əliyev daha bir erməni uydurmasını ifşa etdi: “Dağlıq Qarabağ xalqı” məfhumu mövcud deyil! Dağlıq Qarabağın münaqişəyədək birlikdə yaşayan azərbaycanlılardan və ermənilərdən ibarət əhalisi vardır!

*O başqa məsələdir ki,* dünyanın ali beynəlxalq orqanı sayılan BMT 25 ildən çox müddətdir ki, qəbul etdiyi qərarları yerinə yetirmir!

*O başqa məsələdir ki,* BMT Təhlükəsizlik Şurasının qərarlarının icrası seçmə xarakteri daşıyır: bir qismi mürəkkəbi qurumamış yerinə yetirilir, bəziləri isə uzun illər boyu kağız üzərində qalır!

*O başqa məsələdir ki,* hazırkı dünyada ikili standartlar mövcuddur və Azərbaycan da bundan əziyyət çəkir!

*O başqa məsələdir ki,* BMT-nin fəaliyyətinin səmərəsi aşağıdır, onun özündə islahatlara ehtiyac duyulur!

**Bütün bu həqiqətləri faktların gücü və məntiqin dili ilə ucadan səsləndirən cənab İlham Əliyev münaqişənin həllinin doğru-dürüst variantını bir daha bəyan etdi:**

- *Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır.*
- *Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtması təmin olunmalıdır!*

**İlham Əliyevin Ermənistana, “saqqallı təlxək” ləqəbi qazanmış Ermənistanın baş nazirinə və dünya erməniliyinə ünvanlanmış bu bəyanatı təkcə xatırlatma deyil, həm də xəbərdarlıqdır!**

**İlham Əliyevin bütün bu addımları xalqın ürəyindən xəbər verir, xalqın dəstəyinə, ona olan sonsuz məhəbbətinə və inamına əsaslanır.**

**İlham Əliyev daim xalqın istəklərini ifadə edir, xalqın arzularını gerçəkləşdirir!**

Qarabağ məsələsi Azərbaycan xalqının milli qürurudur!

Dövlətin, dövlətçiliyin taleyinə təsir edən mühüm amildir.

Heç bir azərbaycanlı Qarabağın Azərbaycandan ayrılmasına heç zaman razı olmaz, buna yol verməz!

Qarabağ problemi ölkə vətəndaşları üçün həm də bir məhək daşıdır!

Bu mübarizəsində dövlət başçısına dəstək verməyənlər, indiki həssas məqamda ölkədə sabitliyi pozmağa, xaos və özbaşınalıq yaratmağa çalışanlar isə əslində bu xalqdan sayılmırlar!

**Qarabağ məsələsində müxalif və əks mövqe, ikinci yanaşma yolverilməzdir!**

❖ ❖ ❖

Artıq xalqın səbir kasası daşmaq üzrədir!

ATƏT-in Minsk qrupunun səmərəsiz və dişsiz fəaliyyəti, Ermənistan rəhbərliyinin məsuliyyətsiz açıqlamaları problemin yubanmadan həllini zəruri edir.

*Heydər Əliyev siyasi kursu ilə qətiyyətlə irəliləyən Prezident İlham Əliyevin rəhbərliyi altında münaqişənin qeyri-sülh yolu ilə həlli sahəsində də görülən işlər yekunlaşmaqdadır: Azərbaycan iqtisadi cəhətdən güclənmiş, ən müasir silahlarla silahlanmış qüdrətli ordu yaratmış, diplomatiya sahəsində zəruri addımlarını atmış, dörd günlük Aprel müharibəsində baş məşqini də etmişdir!*

**Cənab İlham Əliyev gördüyü işlərə, xalqının dəstəyinə arxalanaraq “Qarabağ Azərbaycandır!” çağırışını səsləndirmişdir.**

**Qarabağ Azərbaycanındırsa, deməli, kimsə Azərbaycanı Ermənistana birləşdirmək xülyasına düşə bilməz!**

Satellat Ermənistana!

Yoxsul və dilənçi Ermənistana!

Əhalisi durmadan ərazisini tərk edən Ermənistana!

Bu gün təkcə Ermənistanda yaşayanlar yox, bütün dünya erməniliyi də başa düşüb ki, N.Paşinyanın nə siyasətdən, nə diplomatiyadan, nə dövlət idarəçiliyindən, nə də hərbdən başı çıxır!

Yalan vəd vermək, populist çıxışlar etmək, adamlara xoş gəlmək üçün qol götürüb oynamaq, insanları aldatmaq dövlət idarəçiliyinə xas və aid olmayan məsələlərdir.

Artıq onun zamanı bitib!

Ermənistan isə nə blokadadan çıxıb, nə yoxsulluğun daşını atıb, nə əhalisinin ölkədən qaçıb getməsi dayanıb, nə buraya investisiya qoyan tapılıb, nə də nicat yolu müəyyənləşib!

Nicat yalnız işğal altındakı torpaqları qaytarmaqda, qonşu dövlətlərlə normal münasibət quraraq blokadadan çıxmaqdadır!

**Cənab İlham Əliyev “Qarabağ Azərbaycandır!” açıqlaması ilə Ermənistanda bir çaxnaşma yaradıb!**

Ermənilər dövlətlərinin də, rəhbərlərinin də Azərbaycandan, Azərbaycan rəhbərindən nə qədər zəif, miskin durumda olduğunu “nöqtə” ilə “nida”nın müqayisəsində də aydın gördülər!

*İlham Əliyevin bu çağırışı xalqımızı daha sıx birləşdirir!*

*Bu çağırış milli ideya statusu qazanaraq əsl xalq hərəkatına çevrilməkdədir!*

*Ürəyində Vətən sevgisi, qəlbində vətənpərvərlik hissi olan hər bir azərbaycanlı dövlət başçısı ətrafında birləşərək bu hərəkatın fəal iştirakçısına çevrilir!*

**Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycanın olacaq!**

**Bu hərəkata əməldə dəstək olaraq Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə tezliklə torpaqlarımızı azad edəcəyik!**

**“Qarabağ Azərbaycandır!” çağırışı həm də hər bir azərbaycanlının şüarı və fəaliyyət istiqamətidir!**

**Bəxtiyar SADIQOV**

# Erməni faşizmi qlobal təhdiddir

## Ermənistan artıq tək Qafqazın deyil, dünyanın təhlükə mənbəyinə çevrilib

*Əvvəli 1-ci səh.*

Erməni politoloq Andranik Tevanyanın bu barədə söylədiyi fikirlər də deyilənləri bir daha təsdiqləyir: “N.Paşinyanın siyasi maraqlarına xidmət etmək naminə qanun pozanlar bilməlidirlər ki, Hitlerin SA hücum qruplarının istifadə edib məhv etdiyi kimi, onlar da atılacaq və ya məhv ediləcəklər. İndi də bizim “doğma inqilabçımız” qanunsuz əməllər törədilməsi üçün öz xuliqanlarını göndərir. Bunun 2 anlamı var. Paşinyan artıq onu müdafiə edən kütləyə sahib deyil və yerli “hunveybinlər”ə güvənməyə məcburdur. Erməni xalqı ötən əsrin 90-cı illərində olduğu kimi, qanunsuzluqlarla dolu vaxtlara qayıdır. Bütün bunlardan belə çıxır ki, 90-cı illərin ssenarisi Qarabağ məsələsində də təkrarlana bilər. Hər şeyə hazır olmalıyıq”.

Bununla yanaşı, ölkədə mətbuata da təzyiqlər göstərilir, jurnalistlərin fəaliyyəti məhdudlaşdırılır. Buna misal kimi, Prezident İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasındakı çıxışı zamanı N.Paşinyana növbəti xəbərdarlığından sonra Ermənistanda “Aeli” (“Ayna”) saytında dərc edilən “Əliyevin Paşinyana tutarlı cavabı” başlıqlı yazıya görə baş redaktor Anjela Tovmasyana edilən təzyiqləri göstərmək yetərlidir. Bütün bunlar N.Paşinyan “demokratiyasının” artıq öz astarı ilə daha aydın şəkildə üzə çıxdığını göstərir.

Ağır sosial-iqtisadi vəziyyət fonunda ölkədə hər zaman olduğu kimi, miqrasiya probleminin də dərinləşməsi müşahidə olunur. “Məxməri inqilab”ın üstündən bir ildən çox vaxt keçməsinə baxmayaraq demoqrafik durum daha da acınacaqlı vəziyyətə düşməkdədir. Xalq başa düşür ki, Ermənistanda yaşamaq mümkün deyil. İşğalçılıq siyasəti Ermənistanın iqtisadi vəziyyətini ağırlaşdırıb. Düzgün yürüdülməyən siyasət ölkəni çətin duruma salıb. Tez-tez hakimiyyət dəyişikliyi, hərc-mərclik, vətəndaş qarşıdurması və bir sıra xarici amillər Ermənistandan xaricə insan axınını sürətləndirib.

Hətta ölkənin baş naziri N.Paşinyanın proseslə bağlı fikirləri də təsdiq edir ki, tezliklə Ermənistanda əsl demoqrafik fəlakət yaşanacaq. Hakimiyyətin bu məsələnin həlli istiqamətində atdığı addımlar faktiki olaraq iflasa uğrayıb: “Mən bir çox hallarda insanların sosial çətinliklərdən daha çox ədalətsizlik mühiti, doğma yerlərində özlərini həm fiziki, həm də hüquqi, vətəndaş birgəyaşayışı qaydalarının əlçatan olmaması səbəbindən müdafiəsiz olduqlarına görə öz vətənini tərk etdikləri barədə təhlillə razıyam”.

Ölkənin Əmək və Sosial Məsələlər Nazirliyinin demoqrafiya bölməsinin rəisi Artak Markosyan qeyd edib ki, 1992-2002-ci illərdə ölkədə doğuş 60 faiz azalıb. Bu, keçmiş SSRİ ölkələri arasında ən yüksək göstəricidir. On il ərzində doğuş 70 mindən 32 min nəfərə enib. Mühacirət və demoqrafik strategiyanın olmaması 27 ildə acınacaqlı vəziyyət yaradıb.

Ölkə rəhbərliyi indiyədək miqrasiya prosesini dayandıra, qarşısını ala bilmir. Qeyd olunur ki, bu gedişlə Ermənistanda əhalinin kütləvi şəkildə köç etməsinin, xarici ölkələrə axınının qarşısını almaq qətiyyən mümkün olmayacaq. Reallıq budur ki, 1991-ci ildən 2019-cu ilə qədər Ermənistanda yaşayan ermənilər arasında 17 faiz azalma müşahidə edilib. Ermənistan Milli Statistika Xidmətinin Demoqrafiya və statistika şöbəsinin müdiri Karina Kyumcyan deyib ki, 1991-ci ildə 3,5 milyon nəfər əhalisi olan Ermənistanda bu ilin əvvəlində aparılan siyahıyaalma nəticəsində 2 milyon 965 min nəfərin qeydiyyatda olduğu məlum olub.

Yerli mətbuat yazır ki, hələ 12 il bundan əvvəl hökumət miqrasiyanın azaldılmasını nəzərdə tutan strateji proqram işləyib hazırlayıb. Ancaq indiki mənzərəyə əsasən görürük ki, bu proqram heç bir nəticə verməyib. İnsanlar ağır vəziyyətdən bezib ölkəni tərk edirlər. Digər tərəfdən, qanunun selektiv tətbiqi səbəbindən də onlar ölkədən çıxıb gedirlər. Yəni Ermənistan vətəndaşları çoxdan bilirlər ki, qanunlar yazılırsa, bu, hələ onların adi vətəndaşlara şamil ediləcəyi demək deyil. Oliqarxlar, o cümlədən məmur və deputatlar, siyasi hamiləri olanlar inhisarçıya çevriliblər. Onların iqtisadi bazarda başqalarına da yer verməklə bağlı nə iradəsi, nə istəyi, nə də planı var. Bu da ölkəni tərk edənlərin sayını daha da artırır.

Göründüyü kimi, hazırda Ermənistanda demoqrafik fəlakət mövcuddur. Lakin N.Paşinyan hakimiyyətə gəldiyi ilk aylarda insanlar ümidli idilər ki, onun gəlişi ilə iqtisadi durum yaxşılaşacaq, sosial rifah yüksələcək. Ancaq gözləntilər puç oldu. Elə bunun səbəbidir ki, ölkədə artıq Paşinyanın nüfuzu düşməkdədir. Yerli medianın yazdığına görə, sosial şəbəkədə aparılan sorğunun nəticələri də bunu deməyə əsas yaradır. Sorğuya əsasən baş nazirin nüfuzu azalaraq 25 faizə düşüb.

Əlbəttə ki, Ermənistanın düşdüyü acınacaqlı durum ölkənin blokada şəraitində olması ilə bağlıdır. İşğalçılıq siyasətini davam etdirən Ermənistan regionda həyata keçirilən bütün layihələrdən təcrid edilib. Bu siyasət davam edəcəyi təqdirdə Ermənistan düşdüyü acınacaqlı durumdan qurtula bilməyəcək.

Hər zaman Ermənistanın işğalçılıq siyasətini dünyaya bəyan edən Prezident İlham Əliyev dünən Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı çıxışında da bəyan etdi ki, bu gün erməni faşizmi dünya üçün qlobal təhdiddir. Başqasının torpaqlarını işğal edib, qətliamlar, terror aktları həyata keçirən bir ölkədə faşizmin qəhrəman obrazının yaradılması deyilənlərin təsdiqidir: “2016-cı ildə Ermənistandakı əvvəlki hakimiyyət tərəfindən Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana, hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib...

Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur”.

Bu fikirləri ilə cənab İlham Əliyev MDB dövlət başçılarının diqqətinə çatdırdı ki, hər hansısa ölkədə nasizmə dair abidənin qoyulması açıq-aşkar təbliğat vasitəsidir. Bu da bir daha təsdiq edir ki, Ermənistanda nasizm dövlət səviyyəsində təbliğ edilir.

Bütün beynəlxalq toplantılarda Ermənistanın işğalçı siyasətini ifşa edən Azərbaycan Prezidenti MDB Dövlət Başçıları Şurasının iclasında da bu ölkənin yürütdüyü siyasətin əsl mahiyyətini açdı.

Cənab İlham Əliyev ötən həftə “Valday” Belynəlxalq Diskussiya Klubunun XVI illik iclasındakı çıxışından sonra Türkmənistanda növbəti dəfə N.Paşinyana ağır diplomatik zərbə vurdu.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Şavarş Köçəryanın münaqişənin mahiyyətini təhrif etməsi cəhdi ucuz erməni təbliğatından başqa bir şey deyildir

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Ermənistanın xarici işlər nazirinin müavini Şavarş Köçəryanın Xankəndidə keçirilən forumda söylədiklərinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, mətbuat katibi deyib: “Ermənistan xarici işlər nazirinin müavini öz yalanları ilə erməni xalqını aldatmaqla məşğuldur. Onun beynəlxalq hüququn “xalqların öz müqəddəratını müəyyən etməsi” prinsipini Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan erməni icmasının Ermənistan Respublikasının təcavüzkar əməlləri ilə dəstəklənən qanunsuz zorakı separatçılıq cəhdləri ilə eyniləşdirməsi tarixi saxtalaşdırmaq və hüquq prinsiplərini yalan əsasında yozmaq deməkdir. Hüquq isə yalanı sevmir və beynəlxalq hüquq prinsiplərinin əks olunduğu sənədlər kifayət qədər açıq dildə və aydın şəkildə yazılıb. Əgər Ş.Köçəryanın BMT Nizamnaməsindən, BMT TŞ qətnamələrindən, ATƏT-in Helsinki Yekun Aktından, eləcə də sovet dövründə qanunsuz separatçı meyillərlə bağlı SSRİ Ali Sovetinin qəbul etdiyi qərarlardan xəbəri yoxdursa, o zaman Ermənistan xarici işlər nazirinin müavininə yalnız təəssüf etmək olar.

Ermənistanın Azərbaycana qarşı təcavüzü çərçivəsində hazırlanaraq həyata keçirilən və məhkəmə qərarı ilə təqsirkar bilinən 92 nəfər arasında ermənilərin olduğu Sumqayıt hadisələrinin təhrif edilməsi onu göstərir ki, növbəti dəfə Ermənistan tərəfi öz məsuliyyətini başqasının üzərinə atmağa cəhd edir. Bu gün bölgədəki cari vəziyyətin, Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin beşdə birinin hərbi işğal altında olmasının, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətində olmasının yeganə səbəbi Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi təcavüzkar və ilhaqçı siyasətdir. Münaqişənin həlli üzrə danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında aparılır və aparılan danışıqların əsas prinsipləri və mahiyyəti dəfələrlə həmsədr ölkələri tərəfindən ifadə edilib. Ş.Köçəryanın münaqişənin mahiyyətini və danışıqlar prosesini mənasız və əsassız şəkildə təhrif etməsi cəhdi ucuz erməni təbliğatından başqa bir şey deyildir.

# Belarusda keçirilən beynəlxalq forumda Ermənistanın işğalçılıq siyasəti pislənilib

Belarusda “Uçurumun kənarından geri çəkilmək” mövzusunda “Minsk Dialoqu-2019” Beynəlxalq Forumu keçirilib. Azərbaycanın Belarusdakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, forum çərçivəsində “Gələcəkdə təhlükəsizlik üçün yeni fikirlər” adlı yekun plenar iclas keçirilib.

Plenar iclasda Rusiyadan, Kanadadan, ABŞ-dan, Ukraynadan və Polşadan olan ekspertlərlə yanaşı, Ermənistanın Qafqaz İnstitutunun rəhbəri Aleksandr İskəndəryan da iştirak edib. Paneldə Ermənistan nümayəndəsinin iştirakını və təşkilatçılar tərəfdən azərbaycanlı məruzəçinin salınmadığını və mövzunun əhəmiyyətini nəzərə alaraq səfirlik sözügedən tədbirdə iştirak etməyə qərar verib. A.İskəndəryan dünyanın siyasi sisteminin tamamilə dəyişdiyini nəzərə alaraq, “Versal” sülh müqaviləsi, Yalta konfransı və Helsinki Yekun Aktı ilə əldə olunmuş razılaşmalarla və müəyyən olunmuş prinsiplərlə artıq münaqişələrin həll olunmasının qeyri-mümkünlüyünü qeyd edərək yeni yaranmış reallıqlar şəraitində günümüzə uyğun prinsiplər və formaların yaradılmasının vacibliyinə toxunub.

A.İskəndəryan bölgədə mövcud olan münaqişələrin əvvəlki formalar və prinsiplərlə həll olunmasının qeyri-mümkünlüyünü deyib. O, həmçinin yeni yaranmış kiçik ölkələrə böyük dövlətlərə yanaşılan prizmadan baxmağın düzgün olmadığını qeyd edib.

Səfir Lətif Qəndilov iclasın sual-cavab hissəsində söz alaraq bildirib ki, bütün münaqişələrin həllində bərabər prinsiplərdən və formalardan istifadə olunmalıdır. “Ölkələr istər böyük olsun, istərsə kiçik, onlara münasibət eyni olmalıdır. Ermənistan ekspertinin fikri kökündən yanlışdır. Yeni prinsiplər yoxdursa, yalnız mövcud hüquqi bazaya əsaslanılmalıdır və bu da ədalətlidir. Ukrayna və Polşa ekspertləri də çıxışlarında bu mövqeni təsdiq etdiklərinə görə onlara da öz təşəkkürümü bildirirəm. BMT-nin nizamnaməsində yazılıb ki, kiçik və böyük dövlətlər yoxdur, bütün dövlətlər qanun qarşısında bərabərdirlər. Əgər biz bu prinsiplərə inanmırıqsa, Beynəlxalq Millətlər Təşkilatı gərək öz fəaliyyətini dayandırsın. Nə qanunun üzərində, nə də qanunun altında heç bir dövlət olmamalıdır. Əgər bu prinsiplərə riayət olunmasa, biz heç nəyə nail ola bilməyəcəyik” deyə L.Qəndilov əlavə edib.

Səfir “Minsk Dialoqu” çərçivəsində Gürcüstanın sabiq prezidenti Georgi Marqvelaşvilinin çıxışında qeyd etdiyi “Gürcüstan problemi olmasaydı, Ukrayna problemi də olmazdı” fikrini xatırladaraq bildirib ki, daha əvvələ gedərək Dağlıq Qarabağ problemi olmasaydı, Moldova, Gürcüstan və Ukrayna problemləri də olmazdı: “Əgər müasir dünya bu gün bu problemləri görməsə, yalnız ona lazım olan məqamlara fikir versə, o zaman biz bugün olduğumuz kimi uçurumun kənarında olacağıq. Biz hamımız dünyada gedən proseslərdən görürük, bir haqsızlığa icazə verildiyi zaman arxasınca növbəti haqsızlıq baş verir. Sizi əmin edirəm ki, Dağlıq Qarabağda başlayan və Moldovaya, Gürcüstana, Ukraynaya keçən bu məsələlərə fikir verilməsə, problemlər bütün Avropaya yayılacaq”.

L.Qəndilov bütün dünyada milli məsələlərin həll olunma formasının ərazi bütövlüyü çərçivəsində millətlərin öz müqəddəratını həlletmə prinsipinin olduğunu vurğulayaraq deyib: “Bunu etmək üçün 1 milyon azərbaycanlı qaçqın olmalıdır? Bəs, azərbaycanlı qaçqınların hüquqlarını kim qoruyacaq? Mən özüm də ermənilərin işğal etdiyi Dağlıq Qarabağ bölgəsinin Şuşa şəhərindənəm. Mən də qaçqınam, bəs, mənim hüquqlarımı və haqlarımı kim qoruyacaq? Bütün bu məqamlara fikir verilməsə, Qarabağ problemi kimi yeni münaqişələr yaranacaq. İraq, Liviya və Suriyaya dair BMT-də qəbul olunmuş qətnamənin mürəkkəbi qurumadan artıq təyyarələr bu ölkələrdəki terrorçuların qərargahlarını bombalayırdı. Necə olur ki, Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə dair BMT-nin 4 qətnaməsinin qəbul olunmasından keçən uzun müddət ərzində heç bir nəticə əldə olunmayıb. Daha hansı prinsiplər lazımdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll olunsun? Əgər bu məsələ həll olunmasa, Azərbaycan xalqı növbəti 26 ilə dözməyəcək. O zaman böyük münaqişə başlaya bilər, buna ehtiyac varmı? Sivil dünya mövcud olan bütün prinsiplərdən istifadə edərək bu münaqişənin həllinə nail olmalıdır”.

# Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsinin bir çox istiqaməti üzrə sıx əməkdaşlıq əlaqələri reallaşdırılıb

Təhsil naziri Ceyhun Bayramovun dəvəti ilə Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Selçukun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdədir.



Nümayəndə heyəti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin və şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidənin önünə əklillər qoyub.

Nümayəndə heyəti 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisində iştirak edib, bir sıra təhsil müəssisələrində olub.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 11-də Təhsil naziri Ceyhun Bayramov Türkiyə naziri Ziya Selçukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Təhsil naziri Ceyhun Bayramov nümayəndə heyətini respublikamızda qarşılamaqdan məmnunluğunu və bu görüşün iki qardaş ölkə arasında əlaqələrin möhkəmlənməsində mühüm addım olduğunu bildirib. Nazir 2017-ci il 31 oktyabr tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"dən irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində müntəzəm olaraq fəaliyyətin davam etdirildiyini, saziş çərçivəsində iki ölkə arasında təhsil sahəsinin bir çox istiqaməti üzrə sıx əməkdaşlıq əlaqələrinin reallaşdırıldığını vurğulayıb. Həmçinin Azərbaycan və Türkiyənin ali təhsil müəssisələri arasında sıx əlaqələr olduğunu və geniş tələbə mübadiləsi aparıldığını qeyd edib.

Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Selçuk dəvətə və səmimi qarşılanmaya görə təşəkkürünü bildirib. O, yüksək səviyyədə təşkil edilən 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisində iştirak etməkdən məmnun olduğunu və bu sərginin təhsil sahəsində yeniliklərin mübadiləsində mühüm rol oynadığını deyib.

Görüşdə təhsil sahəsinə dair geniş fikir mübadiləsi aparılıb, Azərbaycan və Türkiyə arasında təhsil sahəsində, o cümlədən peşə təhsili sahəsində əməkdaşlıq istiqamətləri və perspektivlər müzakirə edilib.

# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə Vergilər Nazirliyinin əməkdaşlığının əsas istiqamətləri müzakirə edilib

Vergilər naziri Mikayıl Cabbarov İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi siyasəti və inzibatçılığı mərkəzinin Qlobal əlaqələr və inkişaf şöbəsinin rəhbəri Ben Dikinson ilə görüşüb.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın vergi sistemində aparılan islahatlar, vergidən yayınma ilə mübarizədə beynəlxalq vergi əməkdaşlığı və bu sahədə beynəlxalq standartların tətbiqi, həmçinin "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi" (BEPS) layihəsi çərçivəsində OECD və Vergilər Nazirliyi arasında əməkdaşlığın əsas istiqamətləri müzakirə edilib. Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin də iştirak etdiyi görüşdə tərəflər arasında əməkdaşlıq, bu əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla Rusiya arasında mədəniyyət sahəsində əlaqələr genişlənir

Oktyabrın 11-də Mədəniyyət naziri Əbülfəs Qarayev ölkəmizdə səfərdə olan Rusiyanın Mədəniyyət nazirinin müşaviri Mixail Kojemyakinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Rusiya Federasiyasının Tatarıstan Respublikası Mədəniyyət nazirinin birinci müavini Yuliya Adqamova, Dağıstan Respublikası Xalq Yaradıcılıq Evinin direktoru Mariyan Muqatova və Başqırdıstan Respublikası Mədəniyyət nazirinin birinci müavini Nataliya Lapşina iştirak edib.

Əbülfəs Qarayev qonaqları salamlayaraq Azərbaycanın və Rusiyanın mədəniyyət sahəsindəki əlaqələrinin inkişafından məmnunluğunu ifadə edib. Diqqətə çatdırıb ki, Azərbaycan dünyanın müxtəlif ölkələri ilə mədəniyyət sahəsində uğurla əməkdaşlıq edir, teatr, musiqi, rəssamlıq və digər sahələrdə təcrübə mübadiləsi həyata keçirilir.

Nazir ölkəmizin zəngin mədəniyyəti, mədəni irs nümunələri haqqında qonaqlara məlumat verib. Bildirib ki, mədəni irsin qorunması və təbliğində beynəlxalq əlaqələrə və mütərəqqi təcrübəyə xüsusi önəm verilir.

Əbülfəs Qarayev bu ilin yayında UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirildiyini xatırladıb. Vurğulayıb ki, bu sessiyada Şəki şəhərinin tarixi mərkəzi ilə birgə Şəki Xan sarayının təşkilatın Dünya İrs Siyahısına salınması ölkəmizin zəngin mədəni irsə sahib olmasının daha bir əyani sübutudur. Rusiyanın Mədəniyyət nazirinin müşaviri Mixail Kojemyakin səmimi qəbula görə nazirə minnətdarlığını bildirib. O, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd edib, əlaqələrin genişlənməsindən məmnunluğunu bildirib. Qonaq Azərbaycanla mədəniyyət sahəsində daha sıx münasibətlərin qurulmasında, mədəniyyət kollektivlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasında maraqlı olduqlarını diqqətə çatdırıb. Bu istiqamətdə Azərbaycanla mədəni əlaqələrin genişlənməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Sonra qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vətəndaşların qəbulu keçirilib

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər. Növbəti belə qəbul oktyabrın 11-də Səhiyyə naziri Oqtay Şirəliyev tərəfindən Göyçay Mərkəzi Rayon Xəstəxanasında keçirilib. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Ağsu və Göyçaydan olan vətəndaşların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

Oktyabrın 11-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Mingəçevir şəhərində, nazirin birinci müavini Əli Abdullayev Yevlax rayonunda vətəndaşlarla görüşüb.

Nazirlikdən bildirilib ki, nazir Mingəçevir və Ağdaş, nazirin birinci müavini isə Yevlax sakinlərini qəbul edib.

Vətəndaşlar tərəfindən əsasən nəqliyyat, telekommunikasiya, informasiya texnologiyaları və poçt rabitəsi ilə bağlı müraciətlər səsləndirilib.

Vətəndaş müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Oktyabrın 11-də Gənclər və İdman nazirinin müavini İntiqam Babayev Sabirabad rayonunda Sabirabad və Saatlı rayonlarından olan vətəndaşlarla görüşüb.

Gənclər və İdman Nazirliyi xəbər verir ki, müraciətlər gənclər mərkəzlərinin yaradılması, gənclər sahəsində beynəlxalq layihələrin həyata keçirilməsi, gənclərin müxtəlif ölkələrdə keçirilən tədbirlərə ezam edilməsi və digər məsələlərlə bağlı olub.

* * *

Həmin gün Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov Salyan rayonunda Salyan və Neftçala rayonlarından olan vətəndaşlarla görüşüb.

Müraciətlər Gənclər Evinin, olimpiya idman kompleksinin, eyni zamanda, digər idman qurğularının tikintisi və təmiri, idman qurğularına idman avadanlığının verilməsi, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi ilə bağlı olub.

**AZƏRTAC**

# Dağlıq Qarabağ bölgəsindən olan azərbaycanlı gənclərlə görüş

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi və Azərbaycan Gənclər Fondu Dağlıq Qarabağdan olan gənclərimizlə görüş təşkil edib.

AZƏRTAC xəbər verir ki, İctimai Birliyin sədri, icma rəhbəri Tural Gəncəliyev Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin nəticələri barədə danışıb. O bildirib ki, bu gün Ermənistanla münaqişə bütün platformalarda - hərbi, diplomatik sahələrdə və sosial media üzərindən davam edir. Gənclərimiz sosial mediada fəal olmalıdırlar. Ermənilərlə informasiya müharibəsində gənclərin üzərinə böyük məsuliyyət düşür. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün bu gün geniş imkanlar var və gənclərimiz bu imkanlardan istifadə etməlidirlər.

İctimai Birliyin İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Flora Qasımova da gəncləri erməni yalanlarına qarşı fəal olmağa çağırıb. O, gənclərə Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı bəyanatını xatırladıb. Qeyd edib ki, Prezident çıxışında "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək növbəti erməni yalanını ifşa etdi. Çalışmalıyıq ki, hər addımımızda bu bəyanatı xüsusi olaraq hər kəsin diqqətinə çatdıraq. Azərbaycanda iqtisadi, siyasi sahələrdə görülən bütün işlər torpaqlarımızın işğaldan azad edilməsi istiqamətinə yönəlib.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov fondun fəaliyyəti, həyata keçirdiyi layihələr haqqında məlumat verib. O, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən olan gəncləri əməkdaşlığa dəvət edib.

# Gənclər vətən təəssübkeşliyi ilə hərbi xidmətə gedir





Vətən hər birimizin müqəddəs and yeridir. Dünyada ən böyük qəhrəmanlıqlar vətən naminə edilir. Tariximizin hansı səhifəsini vərəqləsək, babalarımızın keçdiyi qəhrəmanlıq yollarının şahidi olarıq. Onlar torpağımızı qorumaq üçün lazım gəldikdə canlarından keçiblər.

Bu ənənə bu gün də davam edir. Azərbaycanda elə bir gənc tapılmaz ki, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin əmrini gözləməsin. Bunu həqiqi hərbi xidmətə yola düşən gənclərin dilindən də tez-tez eşidirik.

Goranboy rayonunda gənclərin hərbi xidmətə yolasalma mərasimində də bunun şahidi olduq. Çağırışçıları yola salmaq üçün Heydər Əliyev Mərkəzinin qarşısına yüzlərlə sakin toplaşmışdı. Əllərində üçrəngli Azərbaycan bayrağı tutmuş çağırışçı gənclərin üzlərindən sevinc, qürur duyulurdu. İştirakçılar mərkəzin qarşısında Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra Dövlət himni səsləndirildi.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyalarının bugünkü inkişafımızdakı rolundan söz açdı. Qeyd etdi ki, Ulu Öndərin həyata keçirdiyi tədbirlər xalqımızın vətənpərvərlik tərbiyəsində mühüm rol oynayıb. Dahi şəxsiyyət deyirdi ki, Vətən yalnız coğrafi ərazi deyil, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının şan-şöhrəti, qeyrəti, qürur mənbəyi, əbədi səcdəgahıdır. Özünü ölkəsinin əsl vətəndaşı hesab edən hər bir gənc bu əmanəti qoruyaraq gələcək nəsillərə ötürmək üçün bütün varlığı ilə vətən təəssübkeşliyi çəkir.

İftixarla deyə bilərik ki, Ulu Öndərdən sonra Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər sayəsində müasir silahlarla təchiz olunmuş ordumuzda xidmət edənlər hərbin sirlərini dərindən mənimsəmişlər. Onlar hər an işğal olunmuş torpaqlarımızı azad etmək qabiliyyətindədir. 2016-cı ilin aprel döyüşləri bunu sübut etdi. Cəmi bir neçə gün ərzində Azərbaycan Ordusu strateji əhəmiyyəti olan neçə-neçə yüksəkliyi düşməndən geri aldı.

Rayon ağsaqqalı Novruz Sadıqov, Milli Qəhrəman Niyazi Aslanovun həyat yoldaşı Rübabə İsmayılova, Qarabağ müharibəsi iştirakçısı Elşən Əliyev çıxış edərək hərbi xidmətə yola düşən gənclərə xoş arzularını bildirdilər.

Çağırışçı gənclər adından ürək sözlərini söyləyən Səməd Əvəzov ata-analarının, müəllimlərinin, eləcə də doğma rayonlarının şərəfini uca tutacaqlarını bildirdi və Vətəni göz bəbəyi kimi qoruyacaqlarına söz verdi.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Goranboy rayon şöbəsinin rəisi Abidin Rüstəmov çağırışçılara tövsiyələr verdi, komandirlərin hər bir tapşırığının sözsüz yerinə yetirilməsinin vacibliyindən danışdı.

"N" saylı hərbi hissə əsgərlərinin nümunəvi çıxışlarından sonra çağırışçılar üçrəngli Azərbaycan bayrağını öpərək marş sədaları altında hərbi hissələrə yola düşdülər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyasında "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin nümayişi

Oktyabrın 11-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin birgə təşkilatçılığı ilə gənclərlə görüş keçirilib.



Komitədən AZƏRTAC-a bildiriblər ki, tədbirdə YAP Gənclər Birliyinin sədri Seymur Orucov, DQİDK-nın şöbə müdiri Amil Cavadov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev və gənclər iştirak ediblər.

Görüş çərçivəsində gənclərə DQİDK-nın tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanan "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmi nümayiş olunub.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Amil Cavadov ölkəmizdə həyata keçirilən uğurlu dövlət-din və gənclər siyasəti, dövlət komitəsinin fəaliyyət istiqamətləri və gənclərin maarifləndirilməsi yönündə həyata keçirilən tədbirlərin önəminə toxunub. Bildirib ki, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsinə, dinlərarası dialoqun inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına, gənc nəslin nümayəndələrinin sağlam ruhda tərbiyəsinə xüsusi diqqət göstərilir. Şöbə müdiri 2 il əvvəl Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını Prezident İlham Əliyevin mənəvi dəyərlərimizə diqqət və qayğısının bariz nümunəsi kimi qeyd edib.

Təmsil etdiyi qurum tərəfindən dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini fanatizmə, radikalizmə qarşı effektiv mübarizənin aparılması, ölkəmizdə tarixən mövcud olan multikultural mühitin, birgəyaşayış ənənələrinin, vəhdətin qorunması və təşviqi istiqamətində maarifləndirmə işinin aparılması və təşkilinə xüsusi önəm verildiyini vurğulayan Amil Cavadov bu sahədə YAP Gənclər Birliyi ilə həyata keçirilən tədbirlərin əhəmiyyətinə də toxunub.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa edib. Ulu Öndər Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçib və müdrik siyasəti ilə əsrlərboyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırıb. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Seymur Orucov əlavə edib ki, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi də hər zaman milli-mənəvi dəyərlərin təbliğinə öz töhfəsini verməyə çalışır. Müxtəlif bölgələrdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə gənclərlə görüşlər keçirilir, müzakirələr aparılır. Bu tədbirlərin özəyində həm gənclərimizin düzgün tərbiyələnməsi, maariflənməsi dayanır, həm də Azərbaycanda mövcud olan multikultural dəyərlərin, tolerantlığın təbliğ edilməsi durur.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev isə qeyd edib ki, fond maarifləndirmə işinin aparılması, milli-mənəvi dəyərlərin qorunması və təbliği sahəsində, habelə bu sahədə sosial layihələrin reallaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində fondun sifarişi ilə kütləvi informasiya vasitələri və sosial medianın imkanlarından istifadə edərək mənəvi dəyərlərin təbliği işini reallaşdırmaq məqsədilə sənədli filmlər, həmçinin kiçikhəcmli videoçarxlar çəkilir. Milli-mənəvi dəyərlərimizi özündə ehtiva edən filmlər və sosial videoçarxlar bu ali dəyərlərdən formalaşan adət-ənənələri, xalqımızın xeyriyyəçilik, ailə dəyərlərini əks etdirir, eyni zamanda, gənclərin vətənpərvərlik və həmrəylik ruhunda tərbiyə edilməsinə xidmət edir.

Görüş müzakirələrlə yekunlaşıb.

# MDB PA-nın Daimi Komissiyasının iclasında ermənilərin təxribat xarakterli təklifi qəbul olunmayıb

Oktyabrın 10-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB PA-nın Siyasi məsələlər və beynəlxalq əməkdaşlıq üzrə Daimi Komissiyasının növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı deputatlar Rüfət Quliyev, Rasim Musabəyov və Azərbaycan Respublikasının MDB PA-dakı səlahiyyətli nümayəndəsi - PA Şurası baş katibi Aydın Cəfərov təmsil ediblər.

İclasda deputat Rüfət Quliyev yenidən MDB PA Siyasi məsələlər və beynəlxalq əməkdaşlıq üzrə Daimi Komissiyasının sədr müavini seçilib.

Azərbaycan nümayəndə heyətinin üzvləri müzakirə olunan bütün məsələlərdə fəal iştirak edərək, prinsipial mövqe nümayiş etdiriblər.

Xüsusilə iclasın gündəliyindəki ikinci məsələ - MDB PA müşahidəçi statusunun əsasnamə layihəsinin müzakirəsi çox gərgin keçib. Deputatlar Rüfət Quliyev, Rasim Musabəyov və Aydın Cəfərovun çıxışlarından sonra ermənilərin təxribat xarakterli təkliflərinin qarşısı qətiyyətlə alınıb.

Belə ki, Asiya müsəlman ölkələrinə MDB PA-da müşahidəçi statusu verilməsi hələ keçən iclasda müzakirə olunub və MDB-nin iştirakçı dövlətlərinin parlamentlərinə təklif olunub ki, əsasnamə ilə əlaqədar konkret təkliflər versinlər.

Ancaq Ermənistan parlamentindən elə təxribat xarekterli təkliflər daxil olub ki, bu, Asiya müsəlman dövlətlərinə müşahidəçi statusunun verilməsini əngəlləyirdi. Müsəlman dövlətlərinə qərəzli erməni münasibəti bizim deputatları çox hiddətləndirib və iclasda onlar erməni tərəfinin təkliflərinə qarşı kəskin mövqedən çıxış edərək, onun qəbul olunmasına yol verməyiblər.

Sonda iclasda qərara alınıb ki, əsasnamə layihəsi yenidən işlənmək üçün MDB-nin iştirakçı dövlətlərinin parlamentlərinə göndərilsin.

Qeyd olunub ki, ya yeni konstruktiv layihə hazırlansın, ya da keçən il təqdim olunmuş layihə qüvvədə saxlanılsın.

Həmçinin nümayəndə heyətimizin üzvləri təklif ediblər ki, lazım gəldiyi təqdirdə layihə MDB PA-da hüquqi ekspertizadan keçirilsin. Beləliklə, ermənilərin daha bir antimüsəlman təxribatının qarşısı tam kəskinliyi ilə alınıb. İclasda "1941-1945-ci illərdəki Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş MDB PA-nın MDB dövlətlərində keçiriləcək tədbirləri" müzakirə olunub.

Müzakirələrdə fəal iştirak edən Rüfət Quliyev təklif edib ki, Qələbənin 75-ci illiyi ilə əlaqədar "Xatirə medalı" təsis edilsin və bu medal müharibə dövründə vuruşan və çalışan ön və arxa cəbhənin sağ olan iştirakçılarına təqdim edilsin. Təklif iclas iştirakçıları və PA vəzifəli şəxsləri tərəfindən böyük razılıqla bəyənilib və MDB PA rəhbərliyinə çatdırılması nəzərdə tutulub. Digər müzakirə olunan məsələlərdə də Azərbaycan parlamentinin nümayəndə heyəti fəallığı ilə seçilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ






# Möcüzələr adası

## “Qara daşlar”dan ən müasir sənaye kompleksinədək

Neft Daşlarını şəhər də, mədən də, nəhəng sənaye kompleksi də adlandırırlar. Bunların heç biri səhv deyil. Sadəcə olaraq, onun istər şəhər, istər mədən, istərsə də müəssisə kimi digərlərinə bənzəri yoxdur.



Neft Daşları dənizin dibinə dayaqlanan polad dirəklər üstündə qərar tutub. Xəzərin qoynundakı geniş bir ərazidə bir-birinə paralel və perpendikulyar, bəzən də ziqzaq şəklində uzanan estakadalar onun dünyada analoqu olmayan simasını yaradır. Bundan əlavə, Neft Daşlarında çoxsaylı özüllərdən də neft və qaz hasil olunur. Neftçilərin yaşadığı yataqxanalar, xidmət obyektləri, muzey, park isə hər tərəfdən sularla əhatə olunmuş bir qəsəbənin mərkəzini təşkil edir.

Elə ki, dan yeri sökülür, estakadalarda üç-bir, beş-bir irəliləyən neftçilər görünür. Onlar iş yerlərinə tələsirlər ki, gecə əmək növbəsində olanları əvəz etsinlər. Uzaq estakadalarda çalışanları isə iş başına maşınlar aparır. Belə estakadalar isə çoxdur, “Neft Daşları” NQÇİ-də onların ümumi uzunluğu 200 kilometri ötür.

Estakadaların eni burada yalnız bir maşının hərəkətinə imkan verir. Nəqliyyat vasitələri qarşı-qarşıya gələndə isə biri estakadayanı meydançaya çəkilməklə digərinə yol verir. Yəni meydançaların istehsalat üçün daşıdığı əhəmiyyətdən əlavə bu funksiyası da var.

Gecə növbəsinə yollanan neftçilər axşamlar yenə də həmin qayda ilə işə gedir, gündüz növbəsini başa çatdıranlar evlərinə - hər ayın tən yarısını yaşadıqları yataqxanaya dönürlər. İstirahət saatlarında onları səliqə-sahmanlı yeməkxanada təamlı yeməklər, “Çay evi”ndə isti çay, idman zalında isə müxtəlif növ oyunlar üçün yaradılmış şərait gözləyir.

Neftçi əməyi çətin və şərəflidir. Onlar açıq dənizin qoynunda ekstremal şəraitdə çalışırlar. Odur ki, Neft Daşlarında işləməyə gələnlərin heç də hamısı dəli-dolu Xəzərlə ülfət bağlayıb burada dözüş gətirə bilmir. Dəniz cəsurları sevir. Bir şərtlə ki, bu sevgi qarşılıqlı olsun.

Neft Daşlarında çalışanlar məhz işini, peşəsini sevən möhkəm iradəli insanlardır. Bunun əsas göstəricisi qazandıqları uğurlardır. Bu ilin ilk 9 ayında “Neft Daşları” NQÇİ-nin təkcə “Neft Daşları” yatağı (“Palçıq Pilpiləsi” yatağı da həmin idarə tərəfindən istismar olunur) 721 min ton neft, 66 milyon kubmetr qaz verib. Rəqəmlər hasilatın nəinki sabit saxlanıldığını, hətta artırıldığını təsdiqləyir. Ümumiyyətlə, son illərdə hasilatın dinamikası yüksəkdir və bu, statistikada belə əks olunur: “Neft Daşları” yatağından 2014-cü ildə 838 min, 2015-ci ildə 844 min, 2016-cı ildə 907 min, 2017-ci ildə 924 min və 2018-ci ildə 945 min ton neft hasil edilib. Qaz hasilatı 2014-2016-cı illərdə sabit olsa da (57 milyon kubmetr), keçən il 83 milyon kubmetrə qədər artıb.



Neft Daşlarını “Möcüzələr adası” da adlandırırlar. Möcüzə təkcə dənizin ortasından “baş qaldıran” bir şəhər deyil, həm də bu məkanda insanların qurub-yaratdıqlarının ildən-ilə artması, köhnələrin təzələnməsi, yeniliklərin tətbiq olunmasıdır.

70 il əvvəl isə burada şiş ucları suyun üzərinə çıxan qara sıldırım daşlardan və “Möcüzələr adası”nın fatehlərinin ətrafda quraşdırdığı primitiv meydança və sığınacaqdan başqa heç nə yox idi. İstehsalatdan silinmiş yeddi gəmi suda basdırılaraq geoloqların, qazmaçıların, neftçıxaranların dənizin dərinliklərinə nüfuz etmək üçün istinad nöqtəsinə çevrilmişdi. Bu səbəbdən də Neft Daşlarını vaxtilə “Qara daşlar”, “Yeddi gəmi adası” da adlandırıblar.



İndi burada o köhnə gəmilərdən əsər-əlamət qalmayıb. Əksinə, Neft Daşlarına hər gün işçiləri növbəyə gətirən və geriyə - quruya aparan, eləcə də özüllər arasında hərəkət edən böyüklü-kiçikli neçə-neçə müasir gəmi yan alır, vertolyotlar enib-qalxır. Keçmişi xatırladan həmin qara daşlar ətrafında yeddi onillikdir dalbadal bütün dünyanı heyrətə gətirən bir şəhər və getdikcə müasirləşib güclənən nəhəng bir sənaye kompleksi ucalır. Möcüzə adlandırsaq da, bunların hamısı gerçəkdir, insanın möcüzədən reallığa çevirdiyi bir həqiqətdir.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

## Sərgidə Əfqanıstan məhsulları nümayiş etdirilib

Oktyabrın 11-də Bakı Biznes Mərkəzində Azərbaycanın İqtisadiyyat, Əfqanıstanın Sənaye və Ticarət nazirliklərinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Əfqanıstan Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə Əfqanıstan məhsullarının sərgisi açılıb.

İqtisadiyyat naziri Şahin Mustafayev və Əfqanıstanın Sənaye və Ticarət naziri Acmal Əhməd sərgi ilə tanış olublar.

Sərgidə qida, tekstil, tikinti materialları istehsalı, inşaat və s. sahələrdə fəaliyyət göstərən 40-dan çox əfqan şirkəti öz məhsullarını təqdim edir. Sərgi oktyabrın 14-də yekunlaşacaq.

## Şəki heyvandarlarına subsidiya ödənilib

Cari ilin 9 ayında Şəki rayonunda 5189 baş inək, camış və düyə süni yolla mayalandırılıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 188 baş çoxdur.

Həmin müddətdə təsərrüfatlarda süni mayalanma yolu ilə 2384 baş buzov və balaq doğulub. 9 ayda rayon üzrə 1646 nəfər heyvan sahibinə süni mayalanma yolu ilə alınan 1984 baş cinsi yaxşılaşdırılmış buzova görə 198 min 400 manat subsidiya ödənilib. Bu barədə Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin heyvandarlıq sektorunun müdiri Nazim Rəcəbov məlumat verib.

Qurumun rəsmisi bildirib ki, son illər rayonda heyvandarlıq məhsullarının istehsalını intensiv yolla artırmaq üçün ciddi tədbirlər görülür. Bugünədək rayonun kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən dövlətin güzəştli şərtləri ilə satılan 384 baş damazlıq düyə alınıb gətirilmişdir. Bu işin gələcəkdə də davam etdiriləcəyini vurğulayan sektor müdiri deyib: “Şübhəsiz ki, hər il rayona gətirilən az sayda damazlıq düyələr hesabına ailə təsərrüfatlarında mövcud olan 71 min başdan artıq mal-qaranın qısa müddətdə cinsini yaxşılaşdırmaq mümkün olmayacaq. Ona görə də son vaxtlar fermerlər heyvanların cins tərkibinin yaxşılaşdırılmasında mühüm rol oynayan süni mayalanma tədbirlərinə üstünlük verirlər. Məhz bu səbəbdən rayonda süni mayalandırılan heyvanların sayı ilbəil artır”.

Nazim Rəcəbov qeyd edib ki, Azərbaycan Prezidentinin “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” 19 avqust 2015-ci il tarixli sərəncamının icrası olaraq, son 4 ildə Şəki rayonu üzrə 4737 nəfər heyvan sahibinə süni mayalanma yolu ilə alınan 5809 baş cinsi yaxşılaşdırılmış buzova görə, hər buzova 100 manat olmaqla, ümumilikdə 580 min 900 manat subsidiya ödənilib.

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması heyvandarlıq məhsulları istehsalının artmasına da müsbət təsir göstərib. Belə ki, cari ilin 9 ayında Şəki rayonunda ət istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 293 ton artaraq 8 min 376 ton, süd istehsalı isə 181 ton artaraq 48 min 273 ton olub.

## Balakəndə III Xurma festivalı keçiriləcək



Oktyabrın 26-da Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Kənd Təsərrüfatı və Mədəniyyət nazirliklərinin, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki “Aqrar Tədarük və Təchizat” ASC-nin, Azərbaycan Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının, “Balxurma” MMC-nin dəstəyi ilə reallaşacaq festivalda xurmadan hazırlanmış geniş çeşiddə məhsullar nümayiş etdiriləcək, müxtəlif müsabiqələr, yarışlar təşkil olunacaq.

Festivala hazırlıq üzrə təşkilat komitəsinin üzvü, rayon icra hakimiyyəti başçısının müavini Mehbarə Əliyeva bildirib ki, festivalda ölkəmizdə fəaliyyət göstərən bir sıra xarici ölkə səfirliklərinin təmsilçiləri, nazirlik və dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, qonşu rayonlardan gəlmiş qonaqlar, xurma istehsalçıları və ixracatçıları, həmçinin rayon sakinləri iştirak edəcəklər.

Qonaqlar əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzəcəklər.

Sonra Gərəkli kəndinin ərazisində yerləşən xurma bağına ekskursiya olacaq, xurma ağacları əkiləcək.

Festivalın rəsmi açılış mərasimi Heydər Əliyev adına mədəniyyət və istirahət parkında olacaq.

Festivala dəvət olunan qonaqlar və rayon sakinləri parkda xurmadan hazırlanmış kompozisiyalara və kulinariya məhsullarına baxacaq, rayonda istehsal edilən kənd təsərrüfatı və sənaye məhsullarının sərgiləri ilə tanış olacaqlar.

III Xurma festivalı konsert proqramı ilə başa çatacaq.

## Ağdamda payız-tarla işləri uğurla davam etdirilir

Ağdam rayonunun təsərrüfatlarında payız-tarla işləri davam etdirilir. Rayonun fermerləri və torpaq mülkiyyətçiləri bəzi kənd təsərrüfatı məhsullarının yığımı ilə yanaşı, payızlıq bitkilərin səpinini davam etdirir, növbəti təsərrüfat ilinə hazırlaşırlar.

Rayon statistika idarəsinin rəisi Xosrov İsmayılov bildirib ki, hazırda əsas diqqət strateji məhsul olan pambığın tez və itkisiz yığılmasına yönəlib. Əgər 2018-ci ilin müvafiq dövründə 2056,7 ton pambıq yığılmaqla məhsuldarlıq 6,6 sentner idisə, cari ilin müvafiq dövründə 3146,7 ton məhsul yığılaraq məhsuldarlıq 12,1 sentner təşkil edir. Bundan başqa, indiyədək 105 hektardan 3627,3 ton şəkər çuğunduru yığılıb. Hər hektarın məhsuldarlığı orta hesabla 345,5 sentnerdir.

Rayonun fermerləri payız səpinini də uğurla davam etdirirlər. İndiyədək məhsul yığımı başa çatmış sahələrin 493 hektarında təkrar əkin aparılıb, 13 min 224 hektar sahə şumlanıb, 1329 hektar sahədə payızlıq bitkilər səpilib.



# Kəndlinin zəhməti, payızın bərəkəti

Hazırda kənd təsərrüfatı sahəsində işlərin qızğın çağıdır. Bir tərəfdən məhsul toplanır, digər tərəfdən isə növbəti ilin məhsulu üçün hazırlıq görülür. Məlumdur ki, payız ayında kəndli nə qazandığının və növbəti ildə nə edəcəyinin hesabatını aparır. İndi müxtəlif rayonlardan daxil olan statistik məlumatlardan görünür ki, məhsul bol olub.

Sözsüz ki, fermerlərin belə uğurlar qazanmasının başlıca səbəbi aqrar sektorda aparılan islahatlar və dövlətin onlara verdiyi dəstəkdir. Kəndli torpaq vergisindən savayı bütün növ vergilərdən azad edilib, üstəlik, istifadə etdiyi yanacaq və sürtkü yağlarına görə dövlət tərəfindən subsidiya da alır. Digər tərəfdən onlara güzəştli şərtlərlə kredit, toxum və kənd təsərrüfatı texnikası verilir. Bütün bunlar aqrar sektorda məhsul istehsalının ildən-ilə artmasını stimullaşdırır.

Prezident İlham Əliyev cari ilin 6 ayında ölkənin sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlərə həsr olunan müşavirədə aqrar sektorda qazanılan uğurlar və verilən dəstək barədə demişdir: “Kənd təsərrüfatında da rekord göstərici əldə edilib. Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır. Yəni bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək”.

Kənd təsərrüfatında strateji məhsul sayılan pambıq yığımı davam edir. Oktyabrın 9-na olan məlumata görə, ölkə üzrə pambıq qəbulu məntəqələrinə 130 min 221 ton məhsul təhvil verilib. Bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur.

Dövlətin bu sahəyə etdiyi güzəştlər daha çox fermeri pambıqçılıqla məşğul olmağa sövq edib. Belə ki, keçən illə müqayisədə cari ildə 20 rayon üzrə pambıq əkən fermerlərin sayı 2373 nəfər artaraq 18 min nəfərə çatıb.

Bu sahənin inkişafı həm iqtisadi, həm də sosial əhəmiyyəti baxımından vacibdir. Ona görə ki, pambıqçılıq yüksək əmaktutumluğu ilə başqa sahələrdən üstündür. Digər tərəfdən isə yüngül sənayenin inkişafına da təkan verir. İndiki halda ölkə üzrə 23 pambıq zavodu, 7 iplik istehsalı fabriki, 3 pambıq yağı istehsalı müəssisəsi fəaliyyət göstərir ki, bu da təxminən 200 mindən çox insanın əsas gəlir mənbəyinə çevrilib.

Tərtər rayonunda da pambıqçılıqla məşğul olan fermerlərin sayı ildən-ilə artır. Bu il rayon üzrə 3427 hektar sahədə pambıq becərilib. Torpaq sahiblərinə “MTK İstehsalat Kommersiya”, “Azərpambıq”, eyni zamanda “P-Aqro” MMC-ləri hər cür dəstək verib. Belə ki, tərəflər arasında bağlanan müqaviləyə uyğun olaraq, pambıq istehsalçıları becərmə zamanı lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla təmin edilib. Bunun nəticəsidir ki, yığım başa çatmasa da, hazırda tarlalardan 5596,6 tondan çox pambıq toplanaraq məntəqələrə təhvil verilib. Onu da vurğulayaq ki, ötən il rayon fermerləri 3300 hektar sahədən 8196,5 ton məhsul tədarük ediblər. Lakin cari ildə bu göstəricinin daha yüksək olacağı şübhəsizdir.

Ağdam rayonunda da pambıq əkininə xüsusi diqqət göstərilir. Bu il əkilən pambıq sahələrinin və əldə edilən məhsulun həcmi ötən illə müqayisədə çoxdur. Belə ki, keçən ilin müvafiq dövründə 2056,7 ton pambıq yığılmaqla məhsuldarlıq 6,6 sentner olduğu halda, cari ildə həmin dövrdə 3146,7 ton məhsul yığılaraq məhsuldarlıq 12,1 sentnerə qədər yüksəlib.

Pambıqla yanaşı, digər sahələrdə də məhsul yığımı davam edir. Ağsu rayonunun fermerləri cari mövsümdə sahələrdən 1378,1 ton kartof yığıblar. Bu il rayon üzrə 166,4 hektarda kartof əkini aparılmışdır. Bu sahələrdən yığılan məhsul ötən illə müqayisədə 1,4 sentner yüksək olub.

Taxılçılıq da kənd təsərrüfatında strateji əhəmiyyət daşıyan bir sahədir. Ölkənin ərzaq təminatında bu sahənin böyük rolu var. Cari ildə taxılçılıqda yüksək nailiyyətlər əldə olunub. Bu il 1 milyon 12 min hektarda taxıl, 670 min hektarda buğda, 342 min hektarda arpa əkini həyata keçirilib. Əvvəlki illərlə müqayisədə taxılçılıqda məhsuldarlıq 30 sentnerdən çox olub. İri fermer təsərrüfatlarında və aqroparklarda bu rəqəm 60 sentner və daha yüksəkdir. Ümumilikdə isə taxıl istehsalı 40 faiz artıb.

Taxılçılıqda gələn ilin təməli indidən qoyulur. Belə ki, hazırda ölkə üzrə payızlıq əkin sahələrinin 77,3 faizdən çox hissəsində şum aparılıb. Bu proses davam edir. Ümumilikdə isə cari ildə 1096294 hektar sahədə payızlıq şumun aparılması proqnozlaşdırılır. Artıq Ağcabədi, Ağstafa, Füzuli, Qobustan, Oğuz, Salyan və Yevlax rayonlarında payızlıq əkin şumu başa çatdırılıb. İmişli, Astara, Xocavənd, Şəmkir, Qəbələ rayonlarında isə bu proses başa çatmaq üzrədir.

Qeyd etdiyimiz kimi, dövlət fermerlərə yüksək məhsul almaq üçün hər cür dəstək göstərir. Bu məqsədlə cari ilin sentyabr ayından “Aqrolizinq” ASC tərəfindən rayonlarda güzəştli qiymətlərlə səyyar gübrə satışı aparılır. Belə satışlar rayonun ucqar kəndlərində həyata keçirilir ki, fermerlərə gübrə almaq asan olsun. Bu da gübrələrin alışında vətəndaşların sərf etdikləri zaman, məsafə itkisinin və əlavə məsrəflərin qarşısını alır, vətəndaş məmnuniyyətini təmin edir.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, sentyabr ayında bir sıra rayonlarda keçirilən səyyar gübrə satışından 2295 sahibkar faydalanıb. Güzəştli qiymətlərlə səyyar gübrə satışı bütün regionları əhatə etməklə mövsüm başa çatana kimi davam etdiriləcək. Bugünə qədər səyyar satış 46 kənd daxil olmaqla 33 rayon üzrə təşkil olunub. Beləliklə, 183 ətraf kənd səyyar satış xidmətlərindən yararlanmaq imkanı qazanıb.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***





# Təhsil





İnkişaf strategiyası

**Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan təhsilin inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**



## Təhsildə qazanılan uğurlar sürətli inkişafa təminat yaradır

Məhz bunun nəticəsidir ki, dövlət başçısının, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilimizin inkişafına göstərdikləri diqqət və qayğı yeni məktəblərin inşasında, ümumtəhsil məktəblərinin əsaslı təmirində, onların maddi-texniki bazasının möhkəmləndirilməsində, təhsil infrastrukturunun yenilənidirilməsində, eləcə də təlim-tərbiyənin və təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında özünü göstərir.

Son illər Azərbaycan təhsilində qazanılan uğurlar Gəncədə daha çox hiss olunur. Xüsusilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Gəncə təhsili ilə daim maraqlanması, onun inkişaf etdirilməsi ilə bağlı göstərdiyi kömək bu sahədə bir çox uğurların qazanılmasına yol açmışdır. Təkcə bu ilin fevral ayında Birinci vitse-prezidentin qədim Nizami yurduna səfərindən sonra 18 nömrəli tam orta məktəb əsaslı şəkildə təmir edilmiş, əlavə olaraq 280 şagird yerlik yeni korpusun inşasına, həmçinin 34 nömrəli tam orta məktəbin əsaslı təmirinə, 28 və 46 nömrəli tam orta məktəblər üçün 1200 şagird yerlik yeni binaların tikintisinə başlanılmışdır.

Gəncə təhsilinə göstərilən diqqət və qayğının nəticəsidir ki, hər il məzunların ali məktəblərə qəbulunda yüksək göstəricilərə nail olunur. Dövlət İmtahan Mərkəzinin statistik məlumatına əsasən, 2018-2019-cu tədris ilinin məzunlarından 2033 nəfəri ali məktəblərə sənəd vermiş, onlardan 1192 nəfəri, yəni 58,63 faizi respublikamızın müxtəlif ali məktəblərinə qəbul olunmuşdur. 46 nəfər isə xüsusi təyinatlı ali təhsil müəssisələrində oxumaq hüququ əldə etmişdir. Bunlardan başqa, 202 nəfər abituriyent 11 illik təhsil bazasından orta ixtisas müəssisələrinə, 36 nəfərdən çox məzun isə müxtəlif xarici ölkələrin, o cümlədən Almaniya, Çexiya, Polşa, Türkiyə, Rusiya və digər ölkələrin ali təhsil müəssisələrinə daxil olmuşdur.




Ali məktəblərə daxil olanların topladıqları ballar da yüksək olmuşdur. 248 nəfər 500-dən yuxarı, 79 nəfər isə 600-dən yuxarı bal toplamışdır.

Təhsil idarəsi tədrisin keyfiyyətinin yüksəldilməsi üçün müəllimlərin təkmilləşdirilməsini daim diqqət mərkəzində saxlayır. Ötən tədris ilində Təhsil Nazirliyinin dəstəyi ilə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən keçirilən diaqnostik qiymətləndirmədə aşağı nəticə göstərən müəllimlərə ixtisasartırma kursları təşkil edilmiş, məşğələlərdə təhsil islahatının başlıca istiqamətləri, milli kurikulumun xüsusiyyətləri, fənn kurikulumlarının spesifik cəhətləri, məzmun standartları, təlim strategiyaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi barədə zəruri biliklər öyrədilmişdir. Azərbaycan Respublikası Təhsil nazirinin müvafiq tapşırığının icrasını təmin etmək məqsədilə məktəbə hazırlıq qruplarında çalışacaq ibtidai sinif müəllimləri üçün də kurslar təşkil edilmişdir. Təlimlərə şəhərin ümumtəhsil məktəblərindən 146 nəfər ibtidai sinif müəllimi cəlb edilmişdir. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu təlim kurslarını bitirmiş müdavimlərin qiymətləndirilməsini və sertifikatların verilməsini təmin etmişdir.

Şagirdlər arasında mütaliənin genişləndirilməsi məqsədilə bir sıra tədbirlər də görülmüşdür. Belə ki, ümumtəhsil məktəbləri şagirdləri arasında "Oxu" günləri, kitab sərgiləri, eləcə də şair və yazıçılara həsr olunmuş tədbirlər keçirilmişdir. Həmin tədbirlərdə şagirdlərin ifasında şeirlər səsləndirilmiş, müxtəlif kompozisiyalar nümayiş etdirilmişdir. Söz yox ki, işin belə təşkili şagirdlərdə mütaliəyə marağı artırmış, onlarda ədəbi biliklərin genişləndirilməsinə və mənəvi zənginliyin formalaşmasına böyük təsir göstərmişdir.

Gəncə məktəbliləri fənn olimpiadalarında da nümunəvi iştirak edirlər. 2018-2019-cu tədris ilində respublika üzrə keçirilən müsabiqə və olimpiadalarda 10 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmışlar.

Sevindirici haldır ki, Gəncə məktəbliləri beynəlxalq yarışmalarda da yüksək nəticələr göstərmişlər. Cari ilin iyun ayında Amerika Birləşmiş Ştatlarında SUNY Osweqo Universitetinin təşkil etdiyi 9-cu "Genius olimpiad"asında (dahilərin yarışması) 79 ölkədən və 43 ştatdan yarışmaya qoşulan şagirdlər arasında Azərbaycanı təmsil edən Gəncə şəhər 27 nömrəli məktəb-liseyin 9-cu sinif şagirdi Rəsul Əliyev və Hüseyn Əliyev fərqlənmə diplomuna layiq görülmüşlər.

Yola salınmış tədris ilində məktəblərdə müxtəlif fənlər üzrə nümunəvi dərslər də təşkil edilmişdir. Şəhər məktəblərində işləyən müəllimlərin iştirakı ilə keçirilən nümunəvi dərslərdə pedaqoji mühazirələr təşkil edilmiş, ən yaxşı mühazirələr Gəncə Şəhər Təhsil İdarəsində yaradılmış təşkilat komitəsinə təqdim olunmuşdur. Komitənin işçi qrupu video çəkiliş aparmaqla hər mühazirəni dinləmiş və qalib pedaqoji mühazirəni elan etmişdir. Qalib gəlmiş 5 mühazirə respublika mərhələsinə təqdim olunmuşdur. Sevindirici haldır ki, M.Mehdizadə adına şəhər 4 nömrəli orta məktəbin ibtidai sinif müəllimi Rəna Abdinova ilkin yerlərdən birini tutmuşdur.

Şəhər təhsil idarəsi birinci sinfə qəbul zamanı şəffaflığı diqqət mərkəzində saxlayır. Ümumiyyətlə, bu iş elektron qaydada aparılır. Hər il ümumtəhsil məktəblərinin birinci sinfinə şagirdlərin qəbulu ilə əlaqədar şagird kontingentinin tam optimallaşdırılması üçün Gəncə şəhər Nizami və Kəpəz rayonlarının icra hakimiyyətləri başçılarının sərəncamları ilə hər bir məktəbin dislokasiyası hazırlanır və həmin dislokasiyalara uyğun şagird qəbulu aparılır. İşin belə təşkili heç bir şagirdin təhsildən kənarda qalmasına imkan vermir. Təkcə onu demək kifayətdir ki, ötən tədris ilində şəhər təhsil idarəsinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil məktəblərinə 4380 nəfər uşaq birinci sinfə qəbul edilmişdir.

Şəhər təhsil idarəsi məktəblilər arasında idmana marağı artırmaq üçün müxtəlif tədbirlər də həyata keçirir. Məktəblilərin asudə vaxtlarının səmərəli təşkilini, istedadlı şagirdlərin üzə çıxarılması və onların inkişaf etdirilməsini təmin etmək məqsədilə məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətini gücləndirməyə daha çox üstünlük verir. Məhz bunun nəticəsidir ki, şəhər məktəbliləri müxtəlif mötəbər yarışlarda uğurla çıxış edirlər. Gəncə məktəbliləri Mirxəyal Məmmədov və Nəbi İsgəndərov karate-do idman növü üzrə Gürcüstanın Qori şəhərində keçirilən beynəlxalq turnirdə yüksək mükafatlar qazanmışlar. Sərbəst güləşçilər Orxan Əliyev və İlkin Məmmədov beynəlxalq xatirə turnirində bürünc medallara layiq yer tutmuşlar. Kikboksçular, ağır atletlər, cüdoçular da uğurlu nəticələrə nail olmuşlar.

Şagirdlərə müxtəlif peşə vərdişlərinin aşılanması da diqqət mərkəzindədir. Belə ki, Gəncə Şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzində fəaliyyət göstərən "Bacarıqlı əllər" dərnəyində şagirdlər toxuculuq, rəqs, rəsm, modelyer-dizayner, dərzilik peşələrinə yiyələnirlər. Dərnəyin üzvləri tez-tez müxtəlif sərgilərdə iştirak edərək layiqli yerlər tuturlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Birgə layihə

## "Karyerada ilk addım"

### Azərbaycan Kooperasiya Universitetində aktiv məşğulluq tədbirində tələbə və məzunlara 307 boş iş yeri və 54 təcrübə proqramı təklif edilib

**Dövlət gənclər siyasətində prioritet məsələlərdən biri də ali məktəb məzunlarının işlə təminatıdır. Bu istiqamətdə müntəzəm olaraq həyata keçirilən layihələr gənclərin işlə təminatında, tələbələrin isə təcrübə proqramlarında yaxından iştirakında əhəmiyyətli rol oynayır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və Azərbaycan Kooperasiya Universitetinin birgə təşkilatçılığı ilə bu ali təhsil müəssisəsinin tələbə və məzunları üçün keçirilən "Karyerada ilk addım" adlı aktiv məşğulluq tədbiri də həmin qəbildəndir. Tələbə və məzunlara 55 müəssisədən, ümumilikdə 307 boş (vakant) iş yeri və 54 təcrübə proqramı təklif olunub.

Gənclər işəgötürənlərə şəxsi məlumatlarını (CV) təqdim ediblər. İşəgötürənlərə isə müvafiq ixtisaslar üçün kadr seçimini aparmaq imkanı yaradılıb. Həmçinin boş (vakant) iş yerlərinə göndərişlər verilib, təcrübə proqramlarına cəlb edilmək istəyənlərin qeydiyyatı aparılıb.

Dövlət Məşğulluq Xidmətinin nümayəndələri tələbə və məzunlara məşğulluq xidmətləri, aktiv məşğulluq tədbirləri, həmçinin özünüməşğulluq proqramı, peşə hazırlığı və əlavə təhsil kursları barədə məlumatlar veriblər.

Ölkəmizdə gənclər arasında məşğulluq səviyyəsinin yüksəldilməsinin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğu xüsusi vurğulanıb. Bu istiqamətdə tətbiq edilən, reallaşan layihələrdən söz açılıb. Bildirilib ki, "Karyerada ilk addım" adlı aktiv məşğulluq tədbirləri də tələbə və məzunların əmək bazarına çıxışının dəstəklənməsinə, onların işəgötürənlərlə ilkin əlaqələrinin qurulmasına xidmət edir. Bu il ərzində 10 universitetdə belə tədbirlərin keçirilməsi planlaşdırılır.

## Elektron dərslik portalı

**Təhsil Nazirliyi tərəfindən hazırlanmış elektron dərslik portalı (www.e-derslik.edu.az) ölkə üzrə saytların reytinq cədvəlində son bir ay ərzində 80 pillə yüksələrək 51-ci olub. Belə ki, sentyabr ayı ərzində portala giriş sayı 332 130-a, səhifələrə ümumi baxış isə 2 748 408-ə çatıb.**

Hazırda məzmun və dizayn baxımından təkmilləşdirilmiş dərsliklərin elektron formatda hazırlanıb portalda yerləşdirilməsi prosesi davam etdirilir. Artıq Azərbaycan və rus bölmələri üzrə portalda mövcud olan 2-ci sinif dərsliklərinin hamısı və hər iki bölmə üzrə 3-cü sinif dərsliklərindən 7-si, ümumilikdə 22 dərslik yeniləri ilə əvəzlənib. Portalda 231 elektron dərslik, 22 metodik vəsait və 2 sinifdənxaric oxu materialı (255 elektron vəsait) mövcuddur.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Xəbərlər

## Tvinninq layihəsi çərçivəsində ekspertlərin səfəri

**Tvinninq layihəsinin altıncı missiyası həyata keçirilib. Bununla əlaqədar Fransanın Burqundiya Universitetinin professoru Mişel Narke və Litvanın Avropa Sosial Fond Agentliyinin biologiya üzrə təhsil proqramları sahəsində ixtisaslaşmış eksperti Trine Meza Johansen ölkəmizə səfər edib.**

Missiyanın məqsədi biologiya ixtisası üzrə dövlət standartının yenilənməsi və bu sahədəki ixtisasların milli təsnifatının yaxşılaşdırılması üzrə tövsiyələrin verilməsindən ibarətdir.

Ekspertlər Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin professor-müəllim heyəti ilə görüşüb, sözügedən standartın yenilənməsi ilə bağlı onların rəy və təkliflərini öyrənib, eləcə də fakültənin maddi-texniki bazası ilə tanış olublar.

## Təhsil islahatları bəhrə verir

**Artıq 2019-2020-ci tədris ili başlayıb. Respublikanın ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələri məlumdur. Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu proqnozu ötən ilə nisbətən 6, dövlət sifarişi ilə qəbul planı isə 66,1 faiz artıb (dövlət sifarişi 8150 yer artaraq 20474 yer olub).**

Tələbə qəbulunda proqnoz yerlərinin 84,6 faizi dövlət, 15,4 faizi isə qeyri-dövlət ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulub. Xatırladaq ki, bu nisbət müvafiq olaraq ötən il 85,4 və 14,6 faiz idi.

2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının ilkin nəticələrinin statistik təhlili də maraqlıdır. Belə ki, son 6 ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul üzrə proqnoz yerlərinin sayı 28, dövlət sifarişlərininki isə 78,5 faiz artıb. 6 il öncə dövlət sifarişli yerlərin sayı qəbul planının 30,4 faizini təşkil edib. Cari ildə bu rəqəm 42,4 faizdir.

Orta ixtisas təhsili müəssisələrində tələbə qəbulu planı bu il ötən ilə nisbətən ümumilikdə 8,2 faiz artıb. 56 orta ixtisas təhsili müəssisəsindən Təhsil Nazirliyinin tabeliyində olan 37 kollecə bu il tələbə qəbulu göstəricisi ötən illə müqayisədə 6,6 faiz çox olub. Ölkə üzrə dövlət hesabına qəbul planı isə 2018-ci ilə nisbətən 4,6 faiz artıb.

"Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Nazirlər Kabinetinin 2019-cu il 3 oktyabr tarixli qərarına əsasən, dövlət sifarişi əsasında kadr hazırlığı üzrə hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı 2019-cu il sentyabrın 1-dən orta hesabla 30 faiz artırılıb. Bu məqsədlə dövlət büdcəsindən ayrılacaq əlavə vəsaitin məbləği bu il 14 milyon, növbəti ildə isə 42 milyon manat təşkil edəcək.

Bununla da dövlət sifarişi əsasında kadr hazırlığını həyata keçirən müəssisələrin maliyyə imkanları yaxşılaşacaq. Əlbəttə, bunun müqabilində işçilərin əməkhaqlarının artırılması, kadr hazırlığı üzrə ali təhsil müəssisələri arasında rəqabət mühiti də güclənəcək. Ümumiyyətlə, ali təhsil müəssisələrinin inkişafı üçün imkanların artması bu sahənin inkişafına yüksək töhfədir.

Məktəb tikintisi





## Müasir tipli məktəblərin sayı artır





**Ölkəmizin iqtisadi gücü artdıqca təhsilin inkişafına diqqət də artır. Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamlarına əsasən, eləcə də dövlət proqramlarının icrası ilə əlaqədar Bakıda və bölgələrdə dünya standartlarına uyğun müasir tipli məktəblərin sayı ildən-ilə çoxalır.**

Bu sahə dövlət həyatında, cəmiyyətin inkişafında strateji əhəmiyyətə malik olduğundan təhsilin taleyi ölkə Prezidentinin və Heydər Əliyev Fondunun daim nəzarətindədir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhsilə diqqət müstəqilliyimizin ilk illərində işlənib hazırlanmış neft strategiyasında da xüsusi yer almışdır. Bu, Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan neft kapitalının insan kapitalına çevrilməsi prosesi idi. İllər keçdikcə özünü doğruldan həmin strategiya bu gün respublikamızın inkişafında həlledici rol oynayır. Hazırda ölkəmizdə olan 3500-dən çox məktəbin 3200-ü müasirliyi, tədris avadanlığının mükəmməlliyi ilə diqqət çəkir. Kəndlərdə 100-dən çox məktəb qazlaşdırılıb, yüzlərlə məktəbdə əsaslı və cari təmir işləri aparılıb. Bakı şəhərində 12 məktəb əsaslı təmir edilib. Bu il daha 80 məktəbin tikilməsi və ya əsaslı təmiri nəzərdə tutulub. Yaxın bir neçə ildə ölkə üzrə ən ucqar kəndlərdən tutmuş iri şəhərlərin tədris ocaqlarına qədər bir dənə də olsun yararsız məktəb binası qalmayacaq. Ölkəmizdə əhalinin sayı artdıqca buna uyğun olaraq məktəb tikintisi də aparılır.

Ekspertlərin fikrincə, bu sahədə Azərbaycan dünyada lider ölkələrdəndir. Xarici mətbuatda da dəfələrlə qeyd edildiyi kimi, heç bir ölkədə bu cür qısa müddət ərzində bu sayda məktəb tikilməyib. Bu istiqamətdə atılan addımlarda Heydər Əliyev Fondunun töhfələri əvəzsizdir. Fondun təşəbbüsü və dəstəyi ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi əsasında təhsil sahəsində mövcud olan problemlər aradan qaldırılır, müasir standartlara cavab verən təhsil kompleksləri inşa edilir. Fondun bu sahədə həyata keçirdiyi layihələrin coğrafiyası və miqyası ilbəil genişlənir. Elə rayonlar, elə qəsəbə və kəndlər var ki, orada ömrünü çoxdan başa vurmuş tikililərin yerində iki, bəzən də üç-dördmərtəbəli dünya standartlarına uyğun binalar inşa edilərək müəllim və şagirdlərin istifadəsinə verilir. Bakının Binəqədi rayonunda qısa müddətdə inşa olunmuş Biləcəri qəsəbə 300 nömrəli tam orta məktəb binası buna bariz nümunədir. 70 il əvvəl tikilmiş həmin məktəb binasının yerində indi möhtəşəmliyi ilə diqqət çəkən dördmərtəbəli bina ucaldılıb. Tədrisin keyfiyyətini yüksəltmək üçün burada bütün lazımi şərait yaradılıb, laboratoriya və xüsusi tədris otaqları müasir avadanlıqlarla təchiz edilib. Ən başlıcası, ikinövbəlilik tamamilə aradan qaldırılıb. 960 şagirdlik bu tədris kompleksinin yeni dərs ili qarşısında açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva da iştirak etmişlər. Bu tədbirdə dövlət başçısı çıxışında demişdir: "Mən çox şadam ki, uşaqlar yeni dərs ilini yeni məktəbdə başlayırlar. Müəllimlərin də iş yeridir. Valideynlər də, uşaqlar da, müəllimlər də razıdırlar. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, xalqımız razı olsun, xalqımızın yaşayış səviyyəsi gündən-günə qalxsın, uşaqlar gözəl məktəblərdə oxusunlar..."

Dövlət başçısının bu fikir və tövsiyələrini bölgələrdə fəaliyyətdə olan məktəblərə də şamil etmək olar. Xatırladaq ki, son iki ildə bölgələrdə 243 modul tipli məktəb quraşdırılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq ucqar kəndlərdə az şagirdtutumlu qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəb təcrübəsi tətbiq edilib. Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin tikintisində əsasən yerli istehsal materiallarından istifadə edilir. Bundan başqa, modul tipli məktəblərin digər üstünlüyü həm də ondadır ki, qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri aparılarkən tədris prosesi dayandırılmır və bu məqsədlə müvəqqəti olaraq 50 yerlik səyyar məktəb quraşdırılır. Bu təcrübədən genişliklə istifadə edilməklə 2017-ci ildə rayonlarda 6 min şagirdlik 106, 2018-ci ildə isə 8120 şagirdlik 137 modul tipli məktəb quraşdırılıb. İnformasiya və kommunikasiya texnologiyaları əhəmiyyətli dərəcədə tətbiq edilib. Bəzi ucqar kəndlərdə qəzalı vəziyyətdə olan məktəb problemini aradan qaldırmaq üçün cari ildə daha 50 modul tipli məktəbin istifadəyə verilməsi nəzərdə tutulub.

Görülən tədbirlər, göstərilən qayğı öz bəhrəsini verir. Təsadüfi deyil ki, bir neçə il əvvəl yaranmış müəllim çatışmazlığı tədricən aradan qalxır. Gənclər həvəslə müəllimlik fəaliyyətini seçirlər. Xüsusilə rayonlarda, qəsəbə və kənd məktəblərində işləməyə, gənc nəslə elm, bilik verməyə maraq göstərənlər çoxalıb. Hətta Bakıda yaşayan neçə-neçə ali məktəb məzunu bir neçə kilometrlərlə məsafədə yerləşən iş yerlərinə, məktəbə hər gün gedib-gəlməkdən yorulmur. Çünki şəxsi arzu ilə bərabər, dövlətin qayğısı onların üzərindədir, verilən maaş, sosial güzəştlər və sairə belə çətinlikləri dəf etməyə ruhlandırır. Həm də görünən odur ki, elm və maarif yolunda xalqın mənafeyini öz şəxsi mənafeyindən üstün tutanların əməyini ölkə Prezidenti, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva həmişə diqqətdə saxlayır, onların millətin gələcəyinə sərf etdikləri əməyini yüksək dəyərləndirirlər. Hər il neçə-neçə müəllim Əməkdar müəllim fəxri adına, orden, medal və digər mükafatlara layiq görülür. Sonuncu dəfə Prezident İlham Əliyevin 3 oktyabr 2019-cu il tarixli sərəncamları ilə təhsilin inkişafında xidmətlərinə görə 64 müəllim "Tərəqqi" medalına, 62 müəllim isə Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd edildiyi kimi, ölkədə təhsilin inkişafı istiqamətində daim mühüm addımlar atılır, təhsilin normativ-hüquqi bazası təkmilləşdirilir, maddi-texniki təminatı istiqamətində respublika Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilir. Nəticə etibarilə müəllimlərin iş şəraiti yaxşılaşır, təhsilin keyfiyyəti nəzərəçarpacaq dərəcədə yüksəlir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# “Azercell”dən gözəl nömrələrə xüsusi kampaniya başlayıb

Ölkənin telekom bazarında ən sərfəli təkliflərlə seçilməyi hədəfləyən “Azercell Telekom” MMC internet və danışıq xidmətlərində yeni imkanlar yaratmaqda davam edir. Şirkət oktyabr ayının 10-dan başlayaraq “Özəl tarifli gözəl nömrələr” kampaniyasını təqdim edir. “Azercell” rəqəmsal dünyanın bir çox imkanlarını özündə birləşdirən GəncOL6, Sərbəst10, Sərbəst15 tarif paketlərinin birinə qoşulmaqla fakturasız xətt sisteminə aid gözəl nömrəni ən əlverişli şərtlərlə əldə etmək üçün əvəzolunmaz fürsət yaradır. Şirkət müştərilərin seçdiyi gözəl nömrədən asılı olaraq GəncOL6, Sərbəst10 və ya Sərbəst15 tarif paketlərindən 6 və ya 12 ay ərzində pulsuz yararlanmaq üçün müstəsna imkan təklif edir. Kampaniya çərçivəsində təqdim edilən nömrələrin siyahısı ilə www.azercellim.com saytında tanış olmaq mümkündür. Təklifdən yararlanmaq üçün “Azercell” rəsmi diler dükanlarına müraciət etmək kifayətdir.

*“Azərbaycan”*

## “Bakı Metropoliteni” QSC-nin “N.Nərimanov” elektrik deposu ərazisində 25-26-27-28-29-30-cu qanovlarda, emalatxanalar binasının, qazanxana binasında, “Dəmir Beton Konstruksiyalar İstehsalat Sahəsində” taxta emalı sexində döşəməsinin epoksid döşəmə örtüyü ilə rənglənməsi və yük həyətində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT-1 “Bakı Metropoliteni” QSC-nin “N.Nərimanov” elektrik deposu ərazisində 25-26-27-28-29-30-cu qanovlarda, emalatxanalar binasının, qazanxana binasında, “Dəmir Beton Konstruksiyalar İstehsalat Sahəsində” taxta emalı sexində döşəməsinin epoksid döşəmə örtüyü ilə rənglənməsi və yük həyətində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin satın alınması

**İştirak haqqı - 300 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesab: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **05 noyabr 2019-cu il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **14 noyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **15 noyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Aİ Türkiyəyə qarşı sanksiyalar məsələsini müzakirə edəcək

Gələn həftə keçiriləcək Avropa İttifaqı sammitində Suriyada başlamış “Sülh bulağı” əməliyyatı ilə əlaqədar Türkiyəyə qarşı sanksiyaların tətbiq olunmasının mümkünlüyü müzakirə ediləcək. Bu barədə Fransanın Xarici İşlər naziri Ameli de Monşalen məlumat vermişdir. O iddia etmişdir ki, Suriyanın şimalında dinc sakinlər üçün dözülməz şərait yaranır.

Xatırladaq ki, oktyabrın 9-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyada “Sülh bulağı” şərti adı altında antiterror əməliyyatının başlandığını elan etmişdir. Əməliyyatda Türkiyə Silahlı Qüvvələri və Ankaranın dəstəklədiyi Suriya Milli Ordusu iştirak edir. Plana uyğun olaraq, əsas vəzifə Suriya ərazisində Fərat çayından İraqla sərhədədək 480 kilometr uzunluğunda və 30 kilometr dərinliyində təhlükəsizlik zonası yaratmaqdır.

## Türkiyə ordusu Suriyanın iki şəhərini mühasirəyə aldı



Türkiyə ordusu və onun tərəfində döyüşən Suriya silahlı müxalifəti ikigünlük döyüşdən sonra Suriyanın şimal-qərbində yerləşən iki sərhədyanı şəhəri - Rəəs əl-Eyn və Təl-Əbyadı mühasirəyə almışdır. Bu barədə “əl-Cəzirə” telekanalı xəbər verir.

Məlumata görə, Türkiyə qoşunları və onların müttəfiqləri adıçəkilən şəhərlərin ətrafında 11 kəndi nəzarət altına aldıqdan sonra mühasirə halqasını qapada bilmişlər.

Öz növbəsində Suriyanın SANA dövlət agentliyi sərhədyanı rayonlardakı PKK/YPG silahlılarının geri çəkildiyini xəbər verir. Silahlılar və onların komandirləri tələsik mülki əhaliyə qoşulub Rəəs əl-Eyni tərk edərək Həsəkə əyalətinin dərinliklərinə üz tuturlar.

## Qırmızı dənizdə İranın neft tankeri partladı



Qırmızı dənizdə İrana məxsus “Sanitized” neft tankerində iki partlayış baş vermişdir. Bu barədə “Press TV” telekanalı xəbər verir.

Partlayış nəticəsində iki neft çəni sıradan çıxmış, dənizə neft sızmışdır. Adamlar arasında zərərçəkən olmamışdır.

İSNA agentliyinin xəbərinə görə, hadisə Səudiyyə Ərəbistanının Ciddə liman şəhərinin yaxınlığında baş vermişdir. Güman edilir ki, partlayışlara səbəb iki raket zərbəsi olmuşdur. Terror aktı mülahizəsi istisna edilmir. Yoxlama aparılır.

## Efiopiyanın Baş Naziri Nobel sülh mükafatı aldı




2019-cu il Nobel sülh mükafatına Efiopiyanın Baş Naziri Abiy Əhməd Əli layiq görülmüşdür. O, ötən il aprelin 2-dən bəri hökumət başçısı vəzifəsini tutur. Bu barədə “İnterfaks” agentliyi xəbər verir.

Norveç Nobel Komitəsi qərarını efirdə birbaşa yayımlanan mərasim zamanı elan etmişdir. Komitə qeyd etmişdir ki, Baş Nazir bu mükafata ilk növbədə Eritreya ilə sərhəd münaqişəsinin həlli zamanı nümayiş etdirdiyi qətiyyətə, habelə beynəlxalq əməkdaşlığa və sülhə verdiyi töhfəyə görə layiq görülmüşdür.

## Migel Dias-Kanel Kubanın Prezidenti seçildi



1976-cı ildən bəri ilk dəfə Kubada Prezident seçilmişdir. Bu, əvvəllər Dövlət Şurasının rəhbəri statusunda ada dövlətinə başçılıq etmiş Migel Dias-Kaneldir.

“El Nuevo Herald” qəzetinin xəbərinə görə, seçki Milli Assambleyada (parlament) keçirilmişdir. Prezident vəzifəsi konstitusiyada dəyişikliyə səbəb olmuş referendumdan sonra bərpa edilmişdir.

59 yaşlı Dias-Kanelin Dövlət Şurasında varisi Esteban Laso olmuşdur.

Xatırladaq ki, ölkəyə Migel Dias-Kaneldən qabaq Fidel və Raul Kastro qardaşları rəhbərlik etmişlər.

## Əfqanıstan aviasiyası 8 ekstremisti məhv etdi



Əfqanıstan hərbi hava qüvvələri ölkənin şimalındakı Qəzni əyalətində “Taliban” radikal hərəkatı ilə əlaqəli azı 8 nəfəri məhv etmişdir. Bu barədə “Sinxua” agentliyi xəbər verir.

Yerli hakimiyyət orqanlarının məlumatına görə, hava hücumundan sonra keçirilmiş xüsusi əməliyyat zamanı ölkənin təhlükəsizlik qüvvələri silah və döyüş sursatları müsadirə etmişdir. Aviazərbələr nəticəsində dinc sakinlər və güc strukturlarının əməkdaşları arasında zərərçəkən olmamışdır.

## Lənkəran Dövlət Universiteti

## *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT 1.** Qazanxana və camaşırxananın cari təmiri

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhər H.Aslanov xiyabanı, 50 ünvanında ala bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat**

**Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu, telefon: (025) 255-14-80**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.**
**Lənkəran Dövlət Universiteti**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50, Faks: (025) 255-27-86; www.lsu.edu.az:office@lsu.edu.az
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertfikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 noyabr 2019-cu il saat 15:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **12 noyabr 2019-cu il saat 17:00-a** qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **13 noyabr 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “İçərişəhər” Muzey Mərkəzi dövlət büdcəsi hesabına “Bakı Xanlarının iqamətgahı” muzeyi üçün ekspozisiyanın qurulmasının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumat əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “İçərişəhər” Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 (əlaqələndirici şəxs: Səbinə Bağırova, telefon: (012) 492-29-10) ünvanından ala bilərlər.

**Hesab: AZ81IBAZ38090019446242419204**
**VÖEN: 1702532651**
**Bank ABB Mərkəzi filial**
**Kodu: 805722**
**VÖEN: 9900001881**
**M/H: AZ03NABZ01350100000000002944**
**S.W.İ.F.T IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 noyabr 2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **12 noyabr 2019-cu il saat 17:00-a** qədər “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “İçərişəhər” Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **13 noyabr 2019-cu il saat 11:00-da** “İçərişəhər” Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanında açılacaqdır.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 11 oktyabr 2019-cu il tarixli sayında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması üçün elan etdiyi açıq tenderdə iddiaçıların tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlərini Portal vasitəsilə təqdimetmə tarixi 04.11.2019-cu il saat 17:00-dan dəyişdirilərək 01.11.2019-cu il tarixinə təyin edilmişdir.

***Tender komissiyası***

## Bu gün paytaxtda küləyin sürətinin saniyədə arabir 23-28 metrədək güclənəcəyi proqnozlaşdırılır

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti oktyabrın 12-də gözlənilən küləkli hava şəraiti ilə bağlı xəbərdarlıq edib. Departamentdən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında oktyabrın 12-də gündüz şimal-qərb küləyinin sürətinin saniyədə 15-20, arabir 23-28 metrədək güclənəcəyi gözlənilir.

# “Partlayıcı qurğu “mütəxəssisi” və digər terrorçular DTX tərəfindən saxlanılıb

Azərbaycan Respublikası vətəndaşlarının radikal dini ideyaların təsiri altında terror təşkilatlarına və bu təşkilatlar tərəfindən ölkə hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb edilmələrinə qarşı Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) kompleks mübarizə tədbirləri davam edir.

DTX-nin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 218.2-ci (cinayətkar birlikdə iştirak etmə) və 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmənin fəaliyyətində iştirak etmə) maddələri ilə aparılan cinayət təqibi üzrə əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, “Abu İbrahim Dağıstani” dini ləqəbi ilə beynəlxalq terror təşkilatlarında partlayıcı qurğular üzrə mütəxəssis kimi fəaliyyət göstərən Azərbaycan Respublikasının vətəndaşı, 1971-ci il təvəllüdlü Güləliyev Bəhram Tağıbəy oğlu 2003-cü ildə qeyri-leqal yollarla Əfqanıstan ərazisinə keçib və oradakı qanunsuz silahlı birləşmələrə qoşulub. Bəhram Güləliyev barəsində başlanılan cinayət işi üzrə beynəlxalq axtarış tədbirləri çərçivəsində o, Pakistan İslam Respublikasında saxlanılaraq 2019-cu ilin oktyabr ayında Azərbaycan Respublikasına ekstradisiya edilib.

Müəyyən olunub ki, Bəhram Güləliyev beynəlxalq terror təşkilatlarını kimyəvi maddələrdən istifadə etməklə hazırladığı partlayıcı qurğularla təchiz edib, əcnəbilərdən ibarət qanunsuz silahlı birləşmələrin tərkibində partlayıcı qurğuların hazırlanması üzrə təlimlər aparıb, eləcə də Azərbaycan Respublikasının vətəndaşlarını həmin silahlı münaqişələrə cəlb edib.

Davam edən araşdırmalarla, Əfqanıstan və Pakistanın sərhəd bölgələrində terror təlimlərində və silahlı münaqişələrdə iştirak edən, daha sonra tərkibində olduğu dəstənin digər üzvləri ilə birlikdə Suriya ərazisinə keçərək orada dini düşmənçilik zəminində aparılan döyüşlərdə iştirak edən Azərbaycan Respublikasının vətəndaşı, 1988-ci il təvəllüdlü Süleymanov Telman Çərkəz oğlu, habelə onunla eyni vaxtda həmin terror qruplaşmalarının tərkibində Suriyanın Atma və digər şəhərlərində silahlı münaqişələrdə iştirak edən Azərbaycan Respublikasının vətəndaşı, 1986-cı il təvəllüdlü Qasımov Elçin Tofiq oğlu ifşa olunaraq saxlanılıblar.

Həmçinin beynəlxalq terror təşkilatlarına qoşulduğuna görə hazırda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilmiş 1982-ci il təvəllüdlü Abbasov Rasi Yaşar oğlunun 2014-cü ilin sentyabr ayında ölkə ərazisini tərk edərək Türkiyəyə, oradan isə xüsusi bələdçilər vasitəsilə qanunsuz yolla Suriya ərazisinə keçərək terror təşkilatına daxil olduğu, həmin cinayətkar birliyin tərkibində Suriyanın Cerablus, Rakka və digər şəhərlərində dini düşmənçilik zəminində aparılan silahlı münaqişələrdə iştirakı müəyyən edilib. Bəhram Güləliyev, Telman Süleymanov, Elçin Qasımov və Rasi Abbasov cinayət məsuliyyətinə cəlb edilərək barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilib.

Dövlət Təhlükəsizliyi Xidməti bir daha Azərbaycan Respublikasının vətəndaşlarını hər hansı formada qanunsuz silahlı birləşmələrə cəlb edən şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb olunacaqları barədə xəbərdarlıq edir və radikal dini ideoloji təsir altına düşmüş vətəndaşları belə qanunsuz silahlı birləşmələrə qoşulmamağa çağırır.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8965
Sifariş 3360
Qiyməti 40 qəpik